**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NADİR ŞAH ƏFŞARIN HƏRBİ-SİYASİ FƏALİYYƏTİ VƏ ONUN İSLAHATLARI (FARSDİLLİ MƏNBƏLƏRİN ƏSASINDA)

İxtisas: 5509.01 – Tarixşünaslıq, mənbəşünasliq və tədqiqat üsulları

Elm sahəsi: – Tarix

İddiaçi: **Rəna Maksud qızı Məmmədova**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun "Multidissiplinar əlyazmalar şöbəsi"ndə yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Nərgiz Çingiz qızı Axundova**

Rəsmi opponentlər AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**
tarix elmləri doktoru, professor
**Şahin Fazil oğlu Fərzəliyev**
tarix elmləri doktoru, dosent
**Şovosil Yunusoviç Ziyodov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

______________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent

______________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent

______________ **Tofiq Hümbət oğlu Nəcəfli**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Nadir şahın – Azərbaycan xalqının böyük oğlunun, son orta əsrlərin nəhəng imperiya yaratmış dahi sərkərdəsinin, L.Lokhartın sərrast deyimi ilə desək, "Şərqin Napoleonu" adını almış və Cənubi Qafqaz, Yaxın və Orta Şərqin tarixində silinməz iz buraxmış dövlət xadiminin çoxcəhətli fəaliyyətinin tədqiqi böyük elmi əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, böyük Əfşar hökmdarı öz ideyalarının modernləşmə məzmunu ilə dövrünü qabaqlamış görkəmli islahatçı idi. Onun müsəlman dünyasında mənəvi durumun kökündən dəyişdirilməsinə, daha geniş kontekstdə götürülərsə - islam dininin islahatına yönəlmiş səyləri, habelə dinlərarası ünsiyyət qurmaq cəhdləri müsəlman xalqlarının orta əsrlər tarixi üçün həqiqətən yenilikçi və misli-bərabəri olmayan hadisə idi. Bu səylər gerçəkləşəcəyi təqdirdə ortaya bir növ müsəlman Reformasiyasını çıxarmış olacaqdı. Nadir şah, bəzən fəhm səviyyəsində tarixi proseslərin məntiqini tutaraq, yaşadığı zamanın fövqünə yüksəlməyi bacaran tarixi şəxsiyyətlərdəndir. Çox vaxt məhz belə şəxsiyyətlər sayəsində tarix bəzən inanılmaz ziqzaqlar edərək, irəliyə hərəkət üçün o çağadək görünməmiş imkanlar aşkara çıxarır.

Nadir şahın dövlət idarəçiliyi və hərbi quruculuq sahəsində həyata keçirdiyi tədbirlər tədqiqatçıların diqqət mərkəzində olmalıdır, çünki, bu zaman görkəmli dövlət xadimin dini sfera ilə yanaşı, sözügedən sahələrdə strateji niyyətlərinin, islahat cəhdlərinin, modernləşdirmək təşəbbüslərinin mahiyyətini əks etdirən cizgilər üzə çıxır. Böyük hökmdarın hərbi fəaliyyəti onun əsas ideyası - qurmaqda olduğu dövləti zamanın çağırışlarına uyğunlaşdırmaqla, onu aparıcı Avropa dövlətlərinin təzyiqləri qarşısında tab gətirə biləcək səviyyədə modernləşdirmək qayəsi ilə sıx bağlı idi.

Nadir şahın şəxsiyyəti və çoxcəhətli fəaliyyəti müxtəlif ölkələrin tədqiqatçılarının, tarixçilərinin, şərqşünaslarının marağına səbəb olmuşdur. Əfşarilər dövlətinin tarixinə, bütövlükdə həmin dövrün aparıcı fiquru olan Nadir şahın fəaliyyətinə zəngin tarixi ədəbiyyat

həsr olunmuşdur. Sözügedən məsələ ilə bağlı tarixşünaslığı Azərbaycan, ingilisdilli, müasir İran, sovet, Rusiya və Türkiyə tarixşünaslığına ayırmaq olar. Xarici tarixşünaslığa keçməzdən öncə biz ilk növbədə bu problem üzrə Vətən tarixşünaslığının nailiyyətlərindən söhbət açmaq istərdik.

XIX əsrin birinci yarısının ensiklopedist-alimi, Aərbaycan tarixşünaslığının əsasını qoyan Abbasqulu ağa Bakıxanovun "Gülüstan-i İrəm" əsəri, akademik Z.M. Bünyadovun sərrast təbirincə desək, akademik planda ilk monoqrafik tədqiqatdır.[1] Sözügedən əsərin dördüncü fəslində həm Səfəvi dövlətinin tənəzzül və süqut dönəminin, həm də Nadir şahın hakimiyyət illərinin hadisələri öz əksini tapmışdır. Bəzi qeyri-dəqiqliklərə baxmayaraq, bu əsər özünün tarixşünaslıq və mənbəşünaslıq dəyərini indiyədək mühafizə etməkdədir.

Nadir şahın apardığı müharibələr və yürüşlər istisna olmaqla, onun yürütdüyü xarici siyasət və yaratdığı dövlətin Osmanlı, Rusiya, Moğol imperiyaları ilə diplomatik münasibətlərinin inkişafı, Vətən tarixşünaslığında yetərincə işlənilməmişdir. Sovet dövründə Azərbaycan tarixçiləri Nadir şahın xarici siyasətinin ayrı-ayrı məqamlarını bir qədər səthi tətqiq etmişdilər.

V.N. Leviatovun Azərbaycanın XVIII əsr tarixinə həsr olunmuş monoqrafiyasında[2] Nadir şahın dövrü ayrıca IV fəsildə nəzərdən keçirilir. Bu əsər oçerk səciyyəsi daşıdığından, bu və ya digər tarixi süjetlər isə kifayət qədər ümumiləşdirilmiş təqdim olunduğundan, Əfşar hökmdarının dönəmi də yalnız ümumi şəkildə verilmişdir. V. Leviatov sovet tarix elmin Nadir şah şəxsiyyətinə verdiyi xarakteristikanın kanonlarına bütövlükdə dəqiq riayət edir. O, oxucuların qarşısına özünün qeyri-məhdud hakimiyyətini qərarlaşdırmağa can atan orta çağın qəddar müstəbidi kimi çıxır. Belə sxematiklik həmişə məhdudiyyətlə, səthi yanaşma ilə nəticlənir, çünki o, Nadirin siyasi davranışını, onun fövqəladə kəskin

---

[1]Бакиханов А.А. Гюлистан-и-Ирам / Ред., коммент., прим. и указ. акад. З.М. Буниятова. Баку: Элм, 1991, 305с.

[2]Левиатов В.И. Очерки из истории Азербайджана в XVIII в. Баку: Изд-во АН Аз.ССР, 1948, 227 с.

tədbirlərini şərtləndirən kifayət qədər mürəkkəb amilləri və faktorları faktiki olaraq inkar edir.

Azərbaycan tarixinin araşdırılan dövrünün öyrənilməsinə 1950-80-ci illərdə azərbaycanlı tarixçilər böyük töhfələr vermişlər. Bu baxımdan F.M. Əliyevin[3], H. Abdullayevin[4], A.Əbdürrəhmanovun[5] monoqrafik tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Bu əsərlər təkcə Azərbaycanın deyil, qonşu ölkələrin də tarixinə kompleks yanaşma ilə seçilir. Həmin əsərlərdə müəlliflər Nadir şahın fəaliyyətinə Azərbaycanda cərəyan edən tarixi proseslər prizmasından baxmışlar ki, bu da Nadir şah dövlətinin tarixinin bəzi məqamlarını daha aydın anlamağa yardım etmişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, sovet dövrü Azərbaycan müəlliflərinin əsərlərində də Nadir şaha neqativ qiymət verilmişdir. Bu, sovet tarixşünaslığının ümumi ideoloji tendensiyası ilə şərtlənirdi. Bu qəbildən olan tədqiqatlarda tarixi gerçəklik faktlarının əksinə olaraq çox vaxt ön plana Rusiyanın regiondakı qabaqcıl missiyasını tərənnüm etmək çıxırdı. Həmçinin sözügedən əsərlərdə Nadir şah İran hökmdarı kimi təqdim olunurdu ki, bu da onun Azərbaycanın tarixi simaları sırasından çıxarılması demək idi.

L.İ.Yunusovanın əsərində[6] XVIII əsrin 30-40-cı illərində İngiltərənin Xəzər dənizi hövzəsində siyasəti barədə dəyərli məlumatlar verilir. Bu monoqrafiya onunla əlamətdardır ki, orada Azərbaycan tarixşünaslığında bir çox hallarda ilk dəfə olaraq ingilis müəlliflərinin əsərləri ətraflı təhlil olunur.

---

[3] Алиев Ф. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века. Баку: Элм, 1975, 231с.; его же, Азербайджано-русские отношения (XV-XIX вв). Ч. 1. Баку: Элм, 1985, 173 с.

[4] Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-80-х гг. XVIII в. Баку: Изд-во АН АССР, 1958, 211с.

[5]Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку: Изд-во АН Азерб. ССР, 1964, 97 с.

[6]Юнусова Л. И. Торговая экспансия Англии в бассейне Каспия в первой половине XVIII века. Баку: Элм, 1988, 158 с.

T.T. Mustafazadənin əsərləri[7] nəzərdən keçirilən dövrün bu və başqa problemlərinin işlənilməsində yeni mərhələni təmsil edir. Həmin müəllifin əvvəlki (sovet) tarix elminin ideoloji prinsiplərindən azad olan tədqiqatları XVIII əsrin birinci yarısında böyük dövlətlərin regionda geosiyasi rəqabəti, Səfəvi dövlətinin dağılma ərəfəsində və həmin dövrdə daxili və xarici siyasi durumu, Azərbaycanda və Cənubi Qafqazda baş verən hərbi-siyasi proseslər kimi mövzulara işıq tutur. Müəllifin Nadir şahın şəxsiyyətinə həsr etdiyi sonuncu monoqrafiyasında böyük sərkərdə oxucuların gözləri önündə ölkəsinin qızğın vətənpərvəri kimi canlanır.

Gənc tədqiqatçılardan N.R.Gözəlovanın mövzuya həsr olunmuş əsərlərini qeyd etməliyik.Müəllif özünün monoqrafiyasında[8] və məqalələrində[9] ingilisdilli tarixşünaslığa əsaslanaraq, Əfşar hökmdarının fəaliyyətinin müxtəlif aspektlərini, o cümlədən Nadir şahın Xəzər dənizində hərbi-dəniz donanması yaratması cəhdlərini, Əfşar dövlətinin qonşu dövlətlərlə qarşılıqlı münasibətlərini, onun hakimiyyətdə olduğu illərdə Britaniya imperiyasının Azərbaycanda siyasətini və s. məsələləri nəzərdən keçirmişdir. E.İ.Hüseynov

---

[7]Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века. Баку: Элм, 1993, 240с.; Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.; Yenə onun (Y. Mahmudovla həmmüəlliflikdə). Nadir Şah Əfşar [Mətn] : tarixin gedişini dəyişdirən dahi sərkərdə. Bakı: [Turxan NPB], – 2019. – 247 s.; XVIII əsrin II rübündə Xəzəryanı regionda beynalxalq münasibətlər və Nadir şah Əfşarın diplomatiyası. Bakı: Optimist MMC, - 2022. – 311 s.

[8]Гезалова Н.Р. Вопросы истории Азербайджана XVIII в. (на основе сведений англоязычных источников и историографии). Баку - Москва: ИРИС Групп, 2010, 241 с.

[9]Гезалова Н.Р. Попытки Надир Шаха Афшара по созданию военно-морского флота на Каспийском море// Известия Азербайджанского Государственного Педагогического Университета, №3, 2006, с. 183-194; Политика Британской империи в Азербайджане во время правления Надир Шаха Афшара // Вестник Дагестанского Государственного Университета, Серия: история, педагогика, психология, 4 выпуск, 2013, с.33-38

monoqrafiyasında[10] Nadir şahın Azərbaycanda bir sıra üsyanlara səbəb olmuş sosial-iqtisadi siyasəti üzərində ətraflı dayanmışdır.

2010-cu ildə Tehranda hərb tarixçisi M. Süleymanovun Nadir şah haqqında farsdilli mənbələr əsasında yazılan yetərincə həcmli monoqrafiyası işıq üzü görmüşdür.[11] AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən hələ 2007-ci ildə Nadir şahın məktublaşması nəşr edilmişdir.[12] Oraya Nadir şahın müxtəlif hökmdarlarla (Osmanlı sultanı, hind padşahı, Xarəzm hakimi ilə), habelə öz məmurları ilə yazışmaları daxil edilmişdir. Adıçəkilən kitab 2015-ci ildə ciddi əlavələrlə yenidən nəşr edimişdir[13]

Mövzunun tədqiqi üçün Avropa mənbələri – Avropadan gəlmiş səyyah və tacirlərin gündəlikləri, yol qeydləri, təsvirləri, xristian missionerlərinin əsərləri böyük dəyər kəsb edir.[14] Bu əsərlərdə, müəyyən qərəzçi mövqeyə baxmayaraq, XVIII əsrin birinci yarısında İranın və Azərbaycanın sosial-iqtisadi və siyasi həyatına, Əfşarilər dövlətinin daxili quruluşuna, Nadir şahın xarici siyasi addımlarına dair hərtərəfli məlumat vardır. Nadir şahın Moğol Hindistanı ilə münasibətlərini araşdırarkən Con Malkolmun "İran tarixi qədim

---

[10]Hüseynov E. İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Bakı: Elm, 2013, 223 s.

[11]Süleymanov M. S. Nadir şah. [Tehran]: [Neqare Endişe], 2010, 740 s.

[12] Nadir şah Əfşarın məktublaşması. Nəşrə hazırlayan, ön sözün müəllifi və şərhərin müəllifi R. Şeyxzamanlı. Bakı: Nurlan, 2007, 62 s.

[13] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı, Sərq-Qərb nəşriyyat evi, 2015, 224 s.

[14] Fraser, James. The History of Nadir Shah, Formerly Called ThamasKuli Khan, the Present Emperor of Persia / J. Fraser. – London: Printed by W. Strahan, – 1742. – 234, [6], 48 p.; Hanway J. An historical account of the British trade over the Caspian Sea: with the author's journal of Travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. Vol. I-IV. London: 1762; A Cronicle of the Carmelits in Persia and the Papal Mission of the XVIIth and XVIIIth centuries, in 2 Volumes, Eyre & Spottiswoode, London 1939; Krusinsky, J.Th. The History of the Late Revolutions in Persia: taken from Memoirs of Father Krusinski, Procurator of the Jesuits at Ispahan, - Vol. 2, - London: Golden Back. - 1740 – 199 p.

zamanlardan bu günə qədər”[15] əsərinin istifadə etdiyimiz 2-ci cildi böyük dəyər kəsb edir. Hindistanda və İranda Ost-Hind şirkətinin silahlı qüvvələrinin zabiti kimi xidmət etmiş C.Malkolm (1768-1833) öz əsərini 1815-ci ildə Londonda nəşr etdirmişdi.

L.Lokhartın 1938-ci ildə Londonda nəşr etdirdiyi “Nadir şah. Müasir qaynaqlar əsasında tənqidi araşdırma”[16] adlı kitabı indiyə kimi fundamental tədqiqat hesab olunur. O, müasir sənəd və narrativ mənbələr əsasında Nadir şahın hakimiyyət dövrünü hərtərəfli araşdıran ilk monoqrafik tədqiqat idi. L.Lokhartın “Səfəvi sülaləsinin süqutu və İranın əfqanlar tərəfindən işğalı”[17] adlı digər monoqrafiyası 1958-ci ildə nəşr olunmuşdur. Bu kitab onun Nadir şaha həsr olunmuş əvvəlki əsərini xronoloji cəhətdən qabaqlayır.

1722-1979-cu illəri əhatə edən “İranın Kembric tarixi: Nadir şahdan islam inqilabına qədər” məşhur çoxcilidliyin 7-ci cildi[18] bizim mövzumuzun açılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Müasir tədqiqatlar sırasında amerikan tarixçisi E.Takerin “Post Səfəvi İranında Nadir şahın legitimlik axtarışları”[19] əsərini qeyd etməliyik. Orada Nadir şahın öz hakimiyyətinin legitimliyinə nail olmaq üçün apardığı siyasət təfsilatlı şəkildə araşdırılmışdır. Adı çəkilən monoqrafiyada E.Takerin bu mövzuya həsr edilmiş məqalələri öz əksini tapmışdır.[20]

---

[15] Malcolm, J. The History of Persia, From the Most Early Period to the Present Time. – London: John Murray, Albemarle-Street, - Vol. 2. – 1815. – 589 p.

[16] Lockhart, L.L., Nadir Shah. A Critical Study Based Mainly upon Contemporary Sources. London: Luzac & Co, - 1938. - 344 p.

[17] Lockhart, L. The Fall of the Safavi Dynasty and the Afghan Occupation of Persia, Cambridge: Cambridge University Press, - 1958. – 584 p.

[18] The Cambridge History of Iran from Nadir Shah to the Islamic Republic, vol. 7, ed. P.Avery, G. Hambly, Ch. Melville, Cambridge, Cambridge University Press, 2003, 1072 p.

[19] Tucker E., Nadir Shah’s Quest for Legitimacy in Post-Safavid Iran, University Press of Florida, 2006, 150 pages

[20] Tucker E., Nadir Shah and Ja’fari Madhab Reconsidered, in Iranian Studies vol. 27, 1-4, (1994), pp. 163-79; Tucker E., The Peace Negotiations of 1736: A Conceptual Turning Point in Ottoman-Iranian Relations, Turkish Studies Assosiation Belletin, Vol. 20, No. 1, Spring 1996, pp. 16-36

Britaniya alimi M.Eksuorsinin tədqiqatları, ilk növbədə də Nadir şaha həsr etdiyi monoqrafiyası[21] böyük maraq doğurur. Müəllif dövrün farsdilli mənbələrinə və Avropa müəlliflərinin materiallarına istinadla, Nadir şah obrazının yeni təhlilini təqdim edir. O, Nadir şahı bütün zəiflikləri ilə bərabər, bir insan kimi açmağa çalışır. M.Eksuorsinin adı çəkilən monoqrafiyası Azərbaycan dilinə tərcümə olunmuş və 2018-ci ildə nəşr edilmişdir[22]. Nadir ordusuna həsr olunmuş məqaləsində M.Eksuorsi Əfşar hökmdarının hərbi islahatlarını geniş sosial-iqtisadi dəyişikliklərə gətirib çıxarmış islahat kimi nəzərdən keçirir.[23]

Holland tarixçisi V.Florun monoqrafiyalarında[24] bizim əsərimiz üçün xeyli faydalı material toplanmışdır. Bu tədqiqatlarda ilkin qaynaqların geniş dairəsinə əsaslanaraq, Əfşarilər dövlətinin konkret zaman kəsimində iqtisadi həyatı, habelə vergi və maliyyə sistemi diqqətlə təhlil olunur.

Nadir şahın dini siyasətinin mahiyyəti haqqında düşünərkən Seyid Hüseyn Nəsr və başqaları tərəfindən tərtib olunmuş "Şiəlik. Doktrinalar, düşüncələr və mənəviyyat" adlı kitabı[25] köməyimizə çatır. Nadir şahın 1736-cı ildə hakimiyyətə gəldikdən sonra təqdim etdiyi Cəfəri məzhəbinin mahiyyətinin öyrənilməsində H.Alqarın "XVIII əsrdə şiəlik və İran" adlı məqaləsinin əhəmiyyətini xüsusi

---

[21]Axworthy, M. The Sword of Persia Nader Shah, From Tribal Warrior to Conquering Tyrant, I.B. Tauris, London-New York, 2006, 348 p.

[22] Aksvörti, M. İranın qılıncı. Nadir şah: tayfa döyüşçüsüns fateh müstəbidə qədər. - Bakl: Şərq-Qərb,Şərq-Qərb, 2018. 400 s.

[23]Axworthy, M. The Army of Nader Shah // Iranian Studies, volume 40, Number 5, December 2007, pp. 635-646

[24] Floor, Willem. The Afghan Occupation of Safavid Persia, 1721–1729. Paris: Association pourl'Avancement des Études Iraniennes, 1998; Floor, W. A Fiscal History of Iran in the Safavid and Qajar Periods 1500-1925 / W.Floor. – New York: Bibliotheca Persica Press, – 1999. – 573 p.; The Rise and Fall of Nader Shah: Dutch East India Company Reports, 1730-1747. Washington: Mage Publishers, - 2009. – 292 p.

[25] Enayat, H. Shi'ism and Sunnism in Seyyed Hossein Nasr, Hamid Dadashi, Seyyed Vali Reza Nasr, Shi'ism. Doctrines, Thoughts and Spirutulity, State University of N-Y Press, Albany, 1988, p. 65-84

qeyd etməliyik.[26] İngilisdilli tarixşünaslığın icmalını yekunlaşdırarkən, qeyd etməliyik ki, Qərb tarixçilərinin bir çoxunun əsərlərində Nadir şahın yaratdığı dövlət və ordunun “İran“ deyə təqdim olunması tarixi həqiqətə ziddir.

Bizi maraqlandıran məsələlərə dair Türkiyədə də kifayət qədər əsər nəşr olunmuşdur. İ.H.Uzunçarşılı[27], Ə.Cəfərpur[28], S.Ari[29], A.Ateş[30], İ.Külbilge[31], M.Aktepe[32] və başqa müəlliflərin əsərlərində Nadir şah dövləti və Osmanlı imperiyası arasında münasibətlərin çoxsaylı aspektləri nəzərdən keçirilmişdir. Türkiyə tarixşünaslığına görə iki dövlət arasında hərbi əməliyyatlar, habelə bizim üçün də böyük dəyər kəsb edən dini islahatlar xüsusilə öyrənilməlidir.

Son Səfəvilər dönəmini və Nadir şahın hakimiyyət illərini araşdıran tədqiqatların mühüm hissəsini Rusiya (sovet) müəlliflərinin əsərləri təşkil edir. Rus alimlərinin inqilaba qədərki tədqiqatları sırasında S.R.Kişmişevin, P.Q.Butkovun, P.L.Yudinin əsərlərini qeyd etmək lazımdır. S.R.Kişmişevin əsərinin[33] dəyəri, fikrimizcə,

---

[26]Algar Hamid, Shi’ism and Iran in the Eighteenth Century, in Studies in Eighteenth Century Islamic History, ed. Thomas Naff and Roger Owen, Carbondale and Edwarswille, 1977, pp. 288-302

[27]Uzunçarşılı İ.H. Osmanlı Tarihi. Beşinci cilt, 6-cı baskı. Karlofça anlaşmasından XVIII yüzyılın sonlarına kadar.

[28] Djafar-Pour, A. Nadir şah Devrinde Osmanlı-İran MTnasebetleri, Ph.D. diss, İstanbul Universitesi, Edebiyat Fakultesi, 1977.

[29] Ari. S. Osmanlı Arşiv Kaynakları İşığında Nadir Şah – I Mehmet Dönemi Ehli Sünnet – Şii Dialoğu. Doktora tezi. TC. Harran universitesi, 2001, 188 s.

[30] Ateş A. Avşarlı Nadir Şah ve döneminde Osmanlı – İran Mücadeleleri. Doktora tezi. S. Demirel universitesi. İsparta, 2001, 177 s. ; Osmanlı-İran Siyasi İlişkileri (1720-1747), - Ankara: Altınpost Yayınları, - 2012. – 314 s.

[31] Külbilge İ. 18-ci yüzyılın ilk yarısında Osmanlı –İran ilişkileri. Doktora tezi. TC. Ehe universitesi. İzmir, 2010, 419 s.

[32]Aktepe M. İranda Nadir Şah ve Beşinci Mezheb Meselesi // - Erciyes: tarihsiz 3, - sayi: 27, - s. 14-21; 1720-1724 Osmanlı – İran Münasibetleri ve Silahsör Kemani Mustafa Ağa’nın Revan Fetih-namesi. - İstanbul: İstanbul Universitesi, - 1070. 90+55 s.

[33] Кишмишев, С.Р. Походы Надир-шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис: Типография А.А. Михельсона, 1889, 304 с.

ondadır ki, əvvəla o, çoxsaylı mənbələrə, o cümlədən farsdilli qaynaqlara istinad etmiş, ikincisi, monoqrafiyanın sonunda müxtəlif arxiv materiallarını – rus konsullarının raportlarını və s. nümunə gətirmişdir.

Uzun illər Qafqazda qulluq etmiş P.Q.Butkov bu regionda 1722-1803-cü illərdə bu regiondakı hadisələri şərh edən üç cilddən ibarət fundamental əsər yazmışdır. Bizim üçün əsərin Nadir şahın hakimiyyət dövrünü təsvir edən fəsilləri maraq doğurur. Orada Nadir şahın Dağıstana yürüşləri haqqında olduqca dəyərli informasiya verilmişdir.[34]

P.L.Yudinin Rusiya rezidenti V.V. Bratişevin 1742-ci ilə dair raportlarına istinad edən məqaləsi[35] Nadir şahın Dağıstana yürüşü kontekstində Əfşar dövləti və Rusiyanın qarşılıqlı münasibətlərinin bəzi məqamlarına işıq tutur.

Sovetlər zamanı Azərbaycan və İran tarixinin Nadir şah dövrü, ilk növbədə Nadirin hərbi-siyasi fəaliyyəti müfəssəl surətdə araşdırılmamışdır. İ.P.Petruşevskinin əsərində[36] ümumi şəkildə olsa da, Nadir şahın islahatlarından və vergi siyasətindən bəhs edilir. 1958-ci ildə nəşr olunmuş "İran tarixi ən qədim zamanlardan XVIII əsrin sonlarınadək" adlı kollektiv monoqrafiyanın[37] IX fəslində Nadir şah və onun yaratdığı dövlət haqqında yalnız ümumi məlumatlar verilir. 1977-ci ildə M.C.İvanovun redaktəsi altında buraxılmış akademik nəşr haqqında da eyni fikri söyləmək mümkündür.[38]

---

[34] Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Часть I. СПб: Тип. имп. АН, 1869, 548 с.

[35] Юдин, П.Л. Россия и Персия в конце 1742 г. (из писем переводчика В. Братищева канцлеру князю А. Черкасскому) // Русский архив. М., 1899. Кн. 1. Ч. 3. с. 369-390

[36] Петрушевский, И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-XIX вв. - Л.: Издательство ЛГУ, 1949, 382 с.

[37]История Ирана с древнейших времен до конца XVIII века / ред. Н. В. Пигулевская, А.Ю. Якубовский, И.П. Петрушевский [и др.] Ленинград: Изд-во ЛГУ, - 1958. - 391 с.

[38] История Ирана / ред. М.С.Иванова. Москва: Изд-во МГУ, - 1977. - 497 с.

“Nadir şah Əfşarın dövləti” adlı fundamental əsərin[39] müəllifləri M.Arunova və K.Aşrafyan Nadir şah dövlətinin təşəkkülü tarixini araşdırarkən, Nadirin əsasən sosial və iqtisadi siyasətini nəzərdən keçirmişlər. Fikrimizcə, sözügedən əsər yetərincə qərəzlidir. Belə ki, müəlliflər öz araşdırmalarında əsasən erməni qaynaqlarına istinad edir, bəzən daha dəyərli farsdilli mənbələri, habelə öyrənilən dövr haqqında Avropa alimlərinin materiallarını bir kənara qoyurlar.

O. Markovanın Rusiya Federasiyasının dövlət arxivlərinin materialları əsasında yazılmış monoqrafik tədqiqatı[40] İranla Rusiya arasında diplomatik münasibətlərinin öyrənilməsində böyük maraq doğurur. Sözügedən əsərdə müəllif tarixi prosesləri araşdırılan zamanın geniş geosiyasi panoramında nəzərdən keçirməyə çalışır. A.N.Kozlovanın məqalələrinin[41] də xüsusi önəmini qeyd etməliyik. Bu əsərdə 1738-ci ildə İbrahim xanın və 1741-ci ildə Nadir şahın yürüşlərinin detalları verilir.

Sovet və Rusiya tarixşünaslığında bizi maraqlandıran mövzu üzrə Dağıstan tədqiqatçılarının əsərləri faktiki olaraq ayrıca istiqamət təşkil edir. Əfşar hökmdarının Dağıstana məşhur yürüşlərinin hərbi və sosial-iqtisadi nəticələrini nəzərə alsaq, bu, təəccüblü görünməməlidir. Dağıstan tarixi üzrə üç cildliyin birinci cildində XVIII əsrin birinci yarısında Dağıstanda siyasi duruma və Nadir şahın yürüşlərinə geniş yer verilmişdir.[42] Dağıstan alimlərinin

---

[39]Арунова, М.Р., Ашрафян К.З. Государство Надир-шаха Афшара. Очерки общественных отношений в Иране 30-40-х годов XVIII века. М.: Изд-во восточной литературы, 1958, 284 с.

[40]Маркова, О.П. Россия, Закавказье и международные отношения в XVIII в. Москва: Наука, - 1966. - 323 с.

[41]Козлова, А.Н. Страница истории освободительной борьбы народов Дагестана // Страны и народы Востока. М., 1976. Вып. XXVIII, с. 125–134; ее же, Козлова, А.Н. «Наме-йи Аламара-йи Надири» Мухаммад-Казима о первом этапе похода Надир-шаха на Табасаран // Освободительная борьба народов Дагестана в эпоху средневековья. Махачкала, 1986, с. 71-82

[42] История Дагестана. [в 4-х томах] / ред. Г.Д. Даниялов. – Москва: Наука, – том 1. – 1967. – 431с.

mühüm tədqiqatlarından X.X.Ramazanov və A.R.Şıxsaidovun,[43] V.H.Hacıyevin[44], N.A.Sotavovun[45], T.M.Aytberovun[46] monoqrafiyalarını, A.İ.Tamayın[47], M.R.Həsənovun[48], H.Ə.Maqomedovun[49], A.Ö.Murtazayevin[50], P.M.Əlibəyovanın[51] məqalələrini xatırlatsaq yerinə düşər. Təbii ki, bu əsərlərdə Nadir şahın Dağıstana münasibətdə istilaçılıq planlarına və hərbi kampaniyalarına daha çox diqqət ayrılır. Sözügedən tədqiqatlarda böyük sərkərdə Dağıstana sırf azadlıqsevər dağlı xalqlarını boyunduruğa salmaq üçün gəlmiş müstəsna müstəbid və təcavüzkar kimi qələmə verilir. Beləliklə, Nadir şahın bu son dərəcə riskli işə girişməsi onun psixoloji durumu və hərbi mülahizələr müstəvisində sadələşdirilmiş şəkildə şərh edilir.

Azərbaycan və İranın XVIII əsrin ikinci rübünün tarixi həm Azərbaycanda, həm də xaricdə kifayət qədər öyrənilmişdir. Lakin

---

[43] Рамазанов Х.Х., Шихсаидов А.Р. Очерки истории Южного Дагестана: Материалы к истории народов Дагестана с древнейших времен до начала XX в. Махачкала: Типография ДФАН СССР, 1964, 278с.

[44] Гаджиев, В.Г. Разгром Надир шаха в Дагестане. Махачкала: Институт истории, археологии и этнографии Дагестанского науч. центра РАН, 1996, 264 с.

[45] Сотавов Н. А. Крах «Грозы Вселенной» в Дагестане. Махачкала: Эпоха, 2013, 350 с.

[46]Айтберов Т.М. Надир-шах Афшар и дагестанцы в 1741 году. Махачкала: Ваше дело, 2011, 200 с.

[47]Тамай А.И. К вопросу о провале Дагестанской кампании шаха Надира (1741-1743 гг.) // Ученые записки ИИЯЛ Дагестанского филиала АН СССР. Т.5. Махачкала, 1958. с. 108-131

[48] Гасанов М.Р. Из истории героической борьбы народов Дагестана против иранских завоевателей // Известия Дагестанского государственного педагогического университета. Общественные и гуманитарные науки, 2008, №2, с.30-37

[49] Магомедов, Г.А. Даргинцы в дагестанском историческом процессе. - Махачкала: Дагест. кн. изд-во, - 1999. – 419 с.

[50]Муртазаев А.О. Роль Кайтага в разгроме войск Надир-шаха в Дагестане в 1734-1747 гг. // Вестник Института ИАЭ, 2009, №3, с. 29-46

[51]Алибекова П.М. Второй поход Надир-шаха в Дагестан (по материалам «Аламара-йе Надери» Мухаммада Казима Мерви) // История, археология и этнография Кавказа. Т. 14, № 2, 2018, с. 83–92

öyrənilən dövrün tarixində daha dəqiq araşdırılmalara ehtiyacı olan məsələlər az deyil. Bu, farsdilli mənbələrin materialları əsasında ilk növbədə Nadir şah Əfşarın xarici siyasətinə, qonşu ölkələrlə diplomatik münasibətlərinin qurulması və inkişafına, böyük sərkərdənin hərbi yürüşlərinə şamil oluna bilər. İlkin farsdilli mənbələrin dərindən təhlili, birincisi, daha geniş faktoloji bazaya istinadla Nadir şahın siyasi və hərbi fəaliyyətini, islahatlarının mahiyyətini araşdırımağa, ikincisi isə Əfşar hökmdarının bu və ya digər əməlinin mahiyyətini yeni nəzəri biliklər işığında konseptual şəkildə dərk etməyə imkan verər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti farsdilli və digər mənbələrin ətraflı təhlili əsasında Nadir şah Əfşarın hərbi-siyasi fəaliyyətinin, o dövrdə regionda yaranmış beynəlxalq vəziyyət kontekstində onun islahatçı addımlarının araşdırılmasıdır. Tədqiqatın predmetini Nadir şahın idarəçilik, hərbi, dini islahatlarının səciyyəvi xüsusiyyətləri, onların strateji məqsədi, yenilikçi mahiyyəti və modernləşmə məzmunu təşkil edir. Bu zaman fəaliyyətin özü dinamik proses kimi götürülür. Həmçinin Nadir şahın fövqəladə hərbi qabiliyyətlərinin bariz şəkildə ortaya çıxdığı əsas vuruşmalar təhlil edilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hazırkı dissertasiya tədqiqatının əsas məqsədi ilk növbədə farsdilli qaynaqların məlumatları əsasında Nadir şahın hərbi-siyasi fəaliyyətinin, o cümlədən dini islahatlarının başlıca istiqamətlərinin hərtərəfli və kompleks şəkildə öyrənilməsidir. Bu məqsədlə fars və digər dillərdə olan mənbələr ciddi şəkildə işlənilmiş və onların təsnifatı aparılmışdır. Bizi maraqlandıran mövzunun müxtəlif aspektləri üzrə işlərin tədqiqata cəlb edilməsi bu və ya digər süjet xəttini daha dərindən açmağa imkan vermişdir.

Dissertasiyanın qeyd olunan məqsədindən çıxış edərək, müəllif tədqiqatın gedişində qarşısına aşağıdakı elmi vəzifələrin həllini qoymuşdur:

- farsdilli sənədli və təhkiyə üslubunda yazılmış qaynaqların digər mənbələr arasında yerini və əhəmiyyətini müəyyənləşdirmək;

- farsdilli qaynaqların verdikləri məlumatların elmi-tarixi dəyərliliyini təsbit etmək;

- əfqan tayfalarının müdaxiləsi ərəfəsində və gedişində Səfəvi dövlətinin daxili və xarici siyasi durumunu təhlil etmək, bu dövlətin süqutuna münasibət bildirmək;

- XVIII əsrin birinci rübündə Rusiya-Osmanlı rəqabəti kontekstində regionun geosiyasi vəziyyətini nəzərdən keçirmək, bu rəqabətin Azərbaycanın taleyi baxımından nəticələrini açıb göstərmək;

- Nadir şah Əfşarın hərbi-siyasi səhnədə peyda olmasının təfsilatlarını müəyyənləşdirmək, onun erkən bioqrafiyasının bəzi epizodlarını aydınlaşdırmaq;

- Nadir şahın hakimiyyətə gəlişi şərtlərini və onun ölkəni yadelli istilaçılardan azad olunmasına yönəlmiş fəaliyyətini təhlil etmək;

- Nadir şahın dini islahatının səbəblərini, gedişini və nəticələrini dərindən təhlil etmək, onun mahiyyət və xüsusiyyətlərinə aydınlıq gətirmək;

- Nadir şahın hərbi islahatlarını və dövlət idarəçiliyi sahəsində dəyişikliklərini tədqiq edərək, onların strateji əhəmiyyətini təqdim etmək;

- Əfşarilar dövlətində daxili vəziyyəti səciyyələndirmək, dayanıqlı dövlət institutları yaratmaq sahəsində uğursuzluqların səbəblərini aydınlaşdırmaq;

- Nadir şahın xarici siyasi fəaliyyətini onun modernləşdirmə strategiyası baxımından öyrənmək;

- onun hərbi yürüşlərini işıqlandırmaq, həm uğurlu, həm də uğursuz kampaniyalarının səbəblərini araşdıraraq göstərmək.

**Tədqiqat metodları.** Təqdim olunmuş iş mənbəşünaslıq və tarixi səciyyə daşıyır. Ona görə də ilk öncə mənbələrin mənbəşünaslıq təhlili aparılmış, onların paleoqrafik xüsusiyyətləri təsbit olunmuş, mətnləri oxunmuş və təfsir edilmiş, onların mötəbərliyi, tamlığı, elmi əhəmiyyəti müəyyənləşdirilmişdir.

Daha sonra Nadir şahın fəaliyyətinin tədqiqi zamanı xronoloji və problem yanaşmasından, obyektivlik və əsasların qənaətbəxş olması prinsiplərindən, habelə bir sıra tarixi prinsiplərdən: analitik, tarixi-

sistem, tarixi-müqayisəli istifadə edilmişdir. Tarix elmi üçün ənənəvi olan metodlarla yanaşı, fənlərarası səciyyə daşıyan yanaşmalar da tətbiq edilmişdir. Bura hermenevtik, narratoloji və semioloji xarakterli metodlar daxildir; onlar diskurs-analiz və narrativlərin öyrənilməsi vasitəsilə Əfşar hökmdarının məqsədləri və niyyətləri barədə bir sıra fərziyyələr irəli sürməyə və onun strateji düşüncəsinə daha dərindən varmağa imkan vermişdir. Bununla yanaşı, politologiya, geopolitika, kulturologiya və tarixi sosiologiya sahələrindən nəzəri biliklərin cəlbi araşdırılan tarixi fonun və ona yardım edən halların daha dolğun şəkildə yenidən yaradılmasını mümkün etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə tədqiqat işinin aşağıdakı nəticələri çıxarılmışdır:

- ilkin qaynaqlarda saxlanılan məlumat həm dini islahatların, həm də hərbi və dövlət idarəçiliyi sahələrində dəyişikliklərin mahiyyət xüsusiyyətlərini yenidən yaratmağa imkan verir;

- farsdilli mənbələrin təhlili Nadir şaha dövlət daxilində vəziyyəti qaydaya salmağa və qonşu ölkələrə hərbi yürüşlər etməyə imkan verən iqtisadi tədbirləri müəyyənləşdirməyə yardım edir;

-Nadir şahın dini islahatı (özünəməxsus müsəlman reformasiyası) Əfşarilər imperiyasında din sahəsində əsaslı çevrilişə şərait yaratmalı idi ki, bu da cəmiyyətin total sosial-mədəni yenilənməsi üçün zəruri əxlaqi-mənəvi şərtlərin təşəkkülünə gətirib çıxaracaqdı;

- Nadir şahın daha fundamental imperiya-quruculuq strategiyasına daxil edilmiş hərbi yürüşləri son nəticədə, Əfşar hökmdarının düşüncəsinə görə, özünün qlobal əhəmiyyətli məkanının formalaşmasına gətirib çıxaracaq zəruri geosiyasi vəzifələri həll etmək məqsədi güdürdü;

- Dağıstan yürüşünə başlayarkən Nadir şah, geosiyasi və hərbi-strateji mülahizələri rəhbər tutaraq tamamən şüurlu surətdə hərəkət etmişdi;

- Nadir şahın hökmranlığının təməl hədəfləri aşağıdakılar idi: ilk növbədə qüdrətli imperiyanın qurulması, özündən asılı dövlətlərin regional xarici siyasi iyerarxik sisteminin bərqərar edilməsi,

imperiyanın siyasi və sosial-mədəni varlığını təmin edəcək ideologiyanın müəyyənləşdirilməsi və zəruri institutların inşası;

- Nadir şahın islahatçı fəaliyyəti tərəfimizdən "mütləqiyyətçi modernləşmə" kimi işarələnən strateji məqsədə xidmət edirdi. Qarşıya qoyulmuş vəzifələr uğurla həll olunacağı təqdirdə Əfşarilər dövləti öz zəmanəsinin rəqabətədavamlı dövlətinə və müsəlman dünyasının dinamik inkişaf edən mərkəzinə çevriləcəkdi;

- Nadir şahın yekun uğursuzluğunun səbəbləri sırasında subyektiv səciyyəli səbəblər önəmli idi. Onlar ilk növbədə real imkanlarla qarşıya qoyulmuş hədəflər arasında nisbətin yanlış müəyyənləşdirilməsində öz ifadəsini tapmışdı. Fikrimizcə, Nadir şahın ən böyük səhvi onda idi ki, o, ilk öncə düzgün olaraq hərbi vəzifələrin həllini ön plana çəksə də, sonralar ölkənin zərurətə çevrilmiş sırf mülki problemlərinin həllinə yönələ bilmədi (yaxud da vəziyyət buna imkan vermədi).

**Tədqiqatın elmi yeniliyi.** Qeyd olunmalıdır ki, Vətən tarixşünaslığında Nadir şahın hərbi-siyasi və islahatçı fəaliyyətinin ilkin mötəbər mənbələr əsasında kompleks şəkildə araşdırıldığı əsər yoxdur. Təqdim olunan dissertasiya bu boşluğu doldurmağa çağırışdır. Hazırkı işin ən mühüm yeniliklərini biz aşağıdakıları hesab edirik:

- Azərbaycan mənbəşünaslığında ilk dəfə olaraq maraqlandığımız mövzu üzrə farsdilli qaynaqlar, habelə ədəbiyyat təsnif edilmiş və səciyyələndirilmişdir;

- Səfəvi dövlətinin tənəzzülünün siyasi, hərbi, sosial-iqtisadi və mənəvi səbəbləri aşkara çıxarılmışdır; müəyyənləşdirilmişdir ki, məhz zamanın tələblərinə müvafiq cavablar sərgiləmək qabiliyyətinin olmaması sözügedən dövləti məhv olmaq həddinə gətirib çıxartdı;

- Səfəvi dövlətinin çöküşü faktından Rusiya və Osmanlı imperiyalarının yararlandığı 1720-30-cu illərdə baş verən hadisələrin geosiyasi konteksti göstərilmişdir; əgər Osmanlı hakimiyyəti üçün Şərqdə torpaqlar ələ keçirmək uğrunda hərbi əməliyyatlar adi iş idisə, Rusiya Cənubi Qafqaza olan iddialarını ilk dəfə ortaya qoyurdu;

- ümumi fəlakət və hərc-mərcliyin artması şəraitində Nadirqulu xan Əfşarın yüksəlişinin təfsilatları aydınlaşdırılmışdır;

- Nadirin taxta çıxması ilə onun hakimiyyətini legitimləşdirməyə imkan verən dini islahat arasında əlaqə üzə çıxarılmışdır;

- dissertasiyada ilk dəfə olaraq Nadir şahın strateji məqsədi kontekstində islahatları ətraflı təhlil edilmişdir; xüsusən konfessional sahədə dəyişikliklərin mahiyyəti göstərilmişdir;

- işdə Nadir şahın həm hərbi yenilikləri, həm də onun dünya hərb sənətini zənginləşdirmiş taktiki icadları təfsilatlı şəkildə araşdırılmışdır; ordu quruculuğuna və taktiki yenilliklərə dair gəldiyimiz qənaətlər yekunlaşdırılmış və maddə-maddə şərh edilmişdir;

- Nadir şahın hərbi islahatları ilə birbaşa əlaqəli olan hərbi uğurlarının səbəbləri ətraflı təhlil olunmuşdur;

- işdə Nadir şahın hərbi yürüşləri onun imperiya quruculuğu ilə əlaqədə öyrənilmiş, bu yürüşlər və qarşıya qoyulan strateji vəzifələr arasında uzlaşma aşkara çıxarılmışdır;

- Nadir şahın bərqərar etdiyi siyasi-dövləti rejimin bizim tərəfimizdən "militokratik" kimi səciyyələndirilməsi dissertasiyanın mühüm yeniliyidir; bu isə mülki sahədə atılan addımların hərbi vəzifələrdən subordinativ asılılığını nəzərdə tutur;

- Nadir şahın iqtisadi siyasəti, o cümlədən geniş torpaq fondunun yaradılması, xəzinə işlərinin nizama salınması və s. onun mərkəzləşdirilmiş dövlət yaratmağa yönəlmiş kursu kontekstində araşdırılmışdır;

- ilk dəfə olaraq Nadir şahın strateji kursunun xarakteristikası üçün tərəfimizdən elmi dövriyyəyə "mütləqiyyətçi modernləşmə" ("avtoritar modernləşmə" ilə analogiya üzrə) anlayışı daxil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırkı tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki, orada farsdilli və s. ilkin mənbələrin müfəssəl təhlili verilmiş, habelə mövcud elmi ədəbiyyata istinadla Nadir şahın hərbi-siyasi və ruhi fəaliyyəti öyrənilmiş və onların dərin əsasları haqqında nəzəri nəticələrə gəlinmiş, habelə o çağın ən mühüm məsələlərinə dair ehtimallar və fərziyyələr irəli sürülmüşdür.

Dissertasiyanın elmi nəticələri və ümumiləşdirmələri Nadir şah və Əfşarilər dövlətinin tarixinə dair bəzən ədəbiyyatda rast gəlinən yanlış nəticələri və mühakimələri təkzib etməyə imkan verir.

Dissertasiyanın materiallarından və nəticələrindən Azərbaycanın, Qafqazın, İranın tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında, Azərbaycanın XVIII əsrin birinci yarısı hərbi-siyasi tarixinə dair tədqiqatların aparıılmasında, Nadir şahın fəaliyyətinin bu və ya digər aspektlərinin öyrənilməsində, habelə mühazirələrin və xüsusi kursların oxunmasında, diplom və kurs işlərinin yazılmasında istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları nəşrə hazırlanan "Nadir şah Əfşarın xarici siyasəti" adlı monoqrafiyada, habelə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrdə əksini tapmışdır. Tədqiq olunan problemin bir sıra məsələri Azərbaycan Respublikasında və xaricdə çap olunan məruzələrdə və elmi nəşrlərdə verilmiş, habelə beynəlxalq konfranslarda səsləndirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Multidissiplinar əlyazmalar şöbəsi"ndə yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi prabelsiz ......işarədən ibarətdir (ədəbiyyat və mənbələr siyahısı istisna olunmaqla): Giriş-....işarə, I Fəsil-.....işarə, II Fəsil-....işarə, III Fəsil-....işarə, İV Fəsil-....işarə, Nəticə-....işarə

## II. DİSSERTASİYA İŞİNİN ÜMUMİ MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tarixşünaslıq ədəbiyyatı təhlil edilmiş, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri xülasə olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, tədqiqatın metodoloji əsası,

elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, aprobasiyası verilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Mənbələrin və ədəbiyyatın icmalı"** adlanır və iki paraqrafdan ibarətdir. **"Mənbələr"** adlanan birinci paraqrafda hal-hazırkı tədqiqatın mənbə bazasını təşkil edən farsdilli qaynaqlar təhlil olunur. Qeyd edilir ki, araşdırılan mövzu üzrə mənbələr yetərincə geniş və müxtəlifdir. İlk növbədə biz Azərbaycanın və qonşu ölkələrin hərbi-siyasi və sosial-iqtisadi tarixi üzrə böyük sayda faktiki materialı özündə birləşdirən diplomatik yazışma topluları kimi sənədli mənbələri öyrənmişik.

Mirzə Mehdi xan Astarabadinin "İnşa" və ya "Münşa'at" adlı sənədlər toplusunun tarixi mənbə kimi dəyəri ondan ibarətdir ki, bu topluda saxlanılan rəsmi yazışma digər salnamələrdə, hökmdarların həyat təsvirlərində, regional tarixlərdə və coğrafiyalarda ehtiva olunmayan məlumatı əldə etməyə imkan verir. Astarabadinin "İnşa" əsərinin AMEA Əlyazmalar İnstitutunda saxlanılan müxtəlif əlyazma nüsxələrindəki məktublarda nəinki Nadir şahın Osmanlı, Rusiya, Moğol imperiaları ilə bizi maraqlandıran diplomatik münasibətlərinə, həmçinin münaqişə durumlarının çözümünə, onların dinc yolla nizamlanmasına, hərbi və iqtisadi yardımlara da diqqət yetirilirdi. Burada həmçinin adları çəkilən ölkələrin ümumi vəziyyəti, sosial-iqtisadi həyatı, şəhərlərin, ticarətin durumu, eləcə də digər dövlətlərlə münasibətlər haqqında dəyərli bilgilərə rast gəlmək mümkündür. Dissertasiya işində biz AMEA Məhəmməd Füzuli adına bu əsərin Azərbaycan Əlyazmalar İnstitutunda muhafizə olunan 21 əlyazması üzərində araşdırma aparmışıq; bu nüsxələrin hər biri müxtəlif sayda sənəd və məktubu ehtiva etməkdədir. M.Astarabadinin "İnşa" toplusuna daxil olan sənədləri və məktubları dövlət və özəl kimi təsnif etmək mümkündür. Öz növbəsində dövlət sənədləri rəsmi və diplomatik qisimlərə bölünür.[52]

[52]Мамедова Р., Сочинение «Инша'» Мирза Мехди хана Астарабади и его бакинские списки, BDU-nun "Tarix və onun problemləri, № 3, Bakı, 2008, с. 40-48

Nadir şahın Osmanlı sarayı ilə diplomatik məktublaşmasının yer aldığı və bizim tədqiq etdiyimiz digər əsər – "I Mahmudun Nadir şahla məktublaşmaları. Nameyi-Hümayun Dəftərləri №3" adlanır.[53] Bu, Türkiyə Başbakanlık Osmanlı Arşivleri əməkdaşlarının 2014-cü ildə İstanbulda işıq üzü görmüş kollektiv çalışmasıdır.

Biz həmçinin fars dilində narrativ qaynaqlardan geniş istifadə etmişik. İlk növbədə Mirzə Mehdi xan Astabadinin daha çox "Tarixi-Nadiri" adı altında məşhur "Tarixi-Cahanqoşayi-Nadiri"[54] ("Cahanı fəth edən Nadirin tarixi") salnaməsinin adını çəkməliyik. Bu, Nadir şahın ciddi xronoloji qaydada rəvayət edilmiş rəsmi tarixi olmaqla, sözügedən hökmdarın hakimiyyət dönəminin bütün önəmli siyasi hadisələrini səhih əks etdirən ən dolğun və müfəssəl əsərdir.

Tətqiqat zamanı biz AMEA Əlyazmalar İnstitutunun fondunda saxlanılan 39 əlyazma nüsxəsinin üzərində tətqiqat aparmışıq. İnstitutun kolleksiyasında Nadirin ölümündən sonra üzü köçürülmüş ən erkən əlyazması Б–5027 şifrə altındadır və 1179-cu il zilqədə ayının 25-də, yəni 1765-ci il mayın 7-də Murtuzaqulu b. Əli Marağai tərəfindən köçürülmüşdür. Bədii nöqteyi-nəzərdən ən dəyərli əlyazması isə M–139 şifrəli əsərlərin nüsxəsidir. O, hədiyyə nüsxəsi olaraq, yüksək səlahiyyətli şəxsin sifarişi ilə hazırlanmışdır.

Mirzə Mehdi xan Astarabadinin üçüncü əsəri olan "Dürrəyi-Nadirə"nin[55] ("Nadir inci") də adını çəkməliyik. "Dürrəyi-Nadirə" son dərəcə qəliz və ağır dillə yazılsa və məzmunca "Tarixi-Nadiri" ilə demək olar ki, eyni olsa da, orada ehtiva olunan materialların unikallığı səbəbi ilə tarixi dəyər kəsb edir.

Məhəmməd Kazım Mərvinin Nadir şah Əfşarın doğulduğu gündən ölümünədək həyatını əhatə edən üç cildlik "Aləm arayi

---

[53]Birinci Mahmut-Nadir Şah Mektublaşmaları, 3 Numaralı Name-I Hümayun Defterleri, haz.İ.Küreli, İ.Türe, Dr. Ali Kaya, Y.Karaca, Dr. Ersin Kırca, R.Köse, V.Atik, BionMatbaaçılık, İstanbul, 2014, 367 s.

[54] استرآبادی , میرزا مهدی خان. جهانگشای نادری. به اهتمام سید عبدالله انوار, تهران، ۱۳۷۷، ۸٦۸ ص.

[55] استرآبادی، میرزا مهدی خان. دره نادره. به اهتمام سید جعفر شهیدی. تهران: شرکت انتشارات علمی و فرهنگی، ۱۰٤۹،۱۳۸۴ ص.

Nadiri”[56] əsəri dəyərli qaynaqdır. Bu əsər bizə yeganə nüsxədə gəlib çatmışdır və Sankt-Peterburq şəhərindəki Rusiya Elmlər Akademiyasının Şərq əlyazmaları İnstitutunda (şifrə Д-430) saxlanılır.[57] Müəllifin özünün etirafına görə, onun əsəri öz şəxsi müşahidələri və təsvir olunan hadisələrin şahidlərindən eşitdiyi hekayələr əsasında qələmə alınmışdır.

Məhəmməd Kazımın əsərində həmçinin Azərbaycanın və qonşu ölkələrin siyasi, iqtisadi və ictimai həyatından çoxsaylı materiallar saxlanılmaqdadır. Məsələn, son Səfəvilər dönəmində ölkənin idarəetmə və maliyyə aparatında vəziyyət, eləcə də Nadir şahın həmin sahələrdə həyata keçirdiyi dəyişikliklər haqqında məlumatlara[58] o dövrün digər mənbələrində rast gəlinmir.

Nadir şahın ordusunun quruluşu, silah növləri, ayrı-ayrı qoşun növləri, hərbi rütbələr və vəzifələr, o dövrün hərbi adətləri, Nadirin öz qoşunlarının döyüş qabiliyyətini möhkəmləndirmək və yüksəltmək üçün atdığı addımlar, onun hərbi strategiyası və döyüş əməliyyyatlarını keçirmək bacarığı haqqında Məhəmməd Kazımın verdiyi məlumatlar[59] da ciddi şəkildə öyrənilməlidir.

Səfəvilər hakimiyyətinin süqutundan Nadirin yüksəlişinədək dövrə aid olan mənbələr sırasında “Həzin” təxəllüslü Şeyx Məhəmməd Əlinin (1104/1692-ci ildə İsfahanda doğulmuş, 1180/1766-cı ildə Benaresdə (Hindistan) vəfat etmişdir) “Tarixi-Həzin”[60] əsərini göstərməliyik. Biz əsərin həm 1332 q.ş./1953-cü ildə İranda işıq üzü görmüş nəşrindən, həm də “Şeyx Məhəmməd Əli Həzinin özünün yazdığı həyatı” adı altında 1830-cu ildə Londonda

---

56 محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، ۳ مجلد، تهران، ۱۳۵۸

57 Миклухо-Маклай, Н.Д. Описание персидских и таджикских рукописей Института востоковедения, вып.3, Москва: Наука. Гл.ред вост. лит-ры, – 1975, с. 209-214

58 محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، جلد ۲، تهران، ۱۳۵۸ ، ص. ۴۵۷

59 محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، جلد ۱ ، تهران، ۱۳۵۸، ص ۱۰۶۱-۱۰۷۲.

60 حزین. شیخ محمد علی. تاریخ حزین. شامل: اواخر صفویه – فتنه افغان – سلطنت نادر شاه، اصفهان: انتشارات تأیید، ۱۳۳۲

çap olunmuş F.S.Belforun ingilis dilinə tərcüməsindən[61], istifadə etmişik.

İstifadə etdiyimiz dövrün qaynaqları sırasında Məhəmməd Möhsün ibn Məhəmməd Kərimin "Zübdət ət-təvarix"[62] adlı əsərinin də adını çəkməliyik. Ümumi tarix şəklində tərtib olunmuş bu əsərdə Səfəvilərin idarəçiliyinin son dövrü təsvir olunur və o, 1736-cı ildə Nadirqulu xanın taxta çıxması ilə başa çatır.

Narrativ mənbələr arasında Hacı Əbdül Kərim Kəşmirinin "Bəyani-vaqe" əsəri xüsusi yer tutur.[63] Bu əsərdə Nadir şahın hakimiyyəti illərinə iki fəsil həsr edilmişdir. Orada Nadirin hakimiyyətə gəlməsindən, Hindistana və Orta Asiyaya yürüşlərindən, Xorasana, Mazandarana və Qəzvinə qayıdışından bəhs edilir. Bu əsərdə biz onunla eyni dövrdə yazılmış qaynaqlarda qarşımıza çıxmayan dəyərli məlumatlarla rastlaşırıq: Əfşarilər ordusunun irəlilədiyi yol üzrə qarşılaşdığı əhali, onların həyat tərzi və adətləri, Nadirin ordusuna qatılmış tayfalar və s. barədə informasiyalar vardır.

XVIII əsrin ikinci yarısında Əfşar dövlətinin iqtisadi vəziyyəti ilə əlaqədar məsələlərin öyrənilməsi üçün vacib mənbələr sırasında "Ruzname-i Mirzə Məhəmməd kələntər-i Fars"[64] (Fars kələntəri Mirzə Məhəmmədin gündəliyi) mühüm yer tutur. Orada ölkədəki siyasi və iqtisadi vəziyyət, əsasən Nadir şah və onun varisləri dövründəki vergi sistemi haqqında dəyərli məlumatlar yer almışdır.

Səfəvilərin, Əfşariların, Zəndlərin son və Qacarların ilk hakimiyyət dövrünə həsr olunmuş və az öyrənilmiş mənbələrdən biri də Məhəmməd Haşimin "Rüstəm ət-təvarix"[65] tarixnaməsidir.

---

[61] Hazin, Mohammed Ali. The Life of Sheikh Mohammed Ali Hazin as Written by Himself / Mohammed Ali Hazin, transl. by F.S. Belfour. – London: Oriental Translation Fund – 1830. – 316 p.

[62] محمد محسن مستوفی ، زبدت التواریخ ،به کوشش بهروز ودرزی، تهران ،۱۳۷۵

[63] کشمیری، عبدالکریم ، بیان واقع . سرگذشت احوال نادر شاه ، به تصحیح و تحقیق کی.بی. نسیم، اداره تحقیقات پاکستان، لاهور، ۱۹۷۰

[64] میرزا محمد کلنر فارس. روزنامه میرزا محمد ، به اهتمام عباس اقبال. تهران, ۱۳۶۲

[65] محمد هاشم، رستم التواریخ ، به نصحیح میترا مهرآبادی، دنیای کتاب، تهران، ۱۳۸۲

Ümumi mədhiyyə səciyyəsinə baxmayaraq, bu əsər Nadir şahın hakimiyyəti dövründə iqtisadi və sosial həyat, onun şəxsiyyəti və daxili siyasəti haqqında dəyərli məlumatları ehtiva edir.

İstifadə etdiyimiz müasir əsərlər arasında Məhəmməd Şəfi Tehraninin "Tarixi-Nadir şah" adlı əsərini də qeyd etməliyik.[66] Orada Nadirin yüksəlişi ilə əlaqədar hadisələr, onun Təhmasib Mirzəyə qoşulması, Əşrəf Əfqan ilə müharibələri, taxta çıxması, Hindistana yürüşü və İrana qayıdışı ətraflı təsvir edilir.

İstifadə olunan əsərlər arasında Mirzə Əbülhəsən Gülüstaninin "Mücməl-əttəvarix pəs az Nadir" ("Nadirdən sonra tarixin qaymaqları") əsərinin adını çəkmək istərdik.[67] Nadir şahın ömrünün son günlərindən, çətin anlarından və ölümündən sonra ortaya çıxan hakimiyyət uğrunda mübarizədən bəhs edən əsərin başlanğıc hissəsi bizim üçün daha önəmlidir.

Nadir şahın müasirləri tərəfindən türk dilində yazılmış qaynaqlar mövzumuzun mənbə bazasını əhəmiyyətli dərəcədə tamamlayır. Belə mənbələr sırasında aşağıdakı əsərlərin adlarını çəkə bilərik: K. Erkan tərəfindən 2011-ci ildə İstanbulda nəşr olunan və Türkiyə arxivlərindən toplanan materiallar əsasında yazılmış "Mühimme dəftəri"ndə saxlanılan 1734-1735-ci illər Osmanlı-İran müharibəsi haqqındakı kitab[68]; Koca Raqib Mehmet Paşanın 1737-ci ildə qələmə aldığı "Təhkik ve Tevfik"[69] adlı əsərində Nadir şahın səfirlərinin 1736-ci ildə Osmanlı dövlət xadimləri ilə keçən danışıqlarını ehtiva edən və sünni alimi və şairi Şeyx Əbülbərəkət Cəmaləddin Abdullah Süveydi ibn Hüseynin (1104/1693 – 1174/1760) Nadir şahın təşəbbüsü ilə 1743-cü ildə Nəcəfdə təşkil olunmuş sünni və şiə alimlərinin müşavirəsi haqqında dəyərli məlumatlar verən "Hüceci-

---

[66] ایران، تهرانی، محمد شفیع. تاریخ نادرشاهی، به اهتمام رضا شعبانی، تهران انتشارات بنیاد فرهنگ ، ۱۳۴۹

[67] گلستانه, ابولحسن بن محمد امین. مجمل التواریخ, به اهتمام مدرس رضوی, تهران: ابن سینا، ۱۳۴۴

[68] Mühimme defteri. 1734-1735 Osmanlı-İran Savaşı (Ramazan 1146-Zilhicce) / haz. Kemal Erkan. – İstanbul: Çamlıca, – 2011. – 228 s.

[69] Rağib Paşa, Koca Mehmet. Tahkik ve Tevfik /haz. Ahmet Zeki İzgöer. – İstanbul: Kitaevi, – 2003. – 282 s.

Katiyya“ (Qəti dəlillər) əsəri[70]; hərbi tarixə və Osmanlı İmperiyası ilə Əfşarilər dövləti arasındakı diplomatik münasibətlər tarixinə dair dəyərli bilgiləri özündə cəmləşdirən Sırrı Efendinin kitabı “Risalet üt-Tarihi-Nadir Şah [71]; Sübhi Mehmet Efendinin qələmə aldığı və 1730-1744-cü illər tarixini təsvir edən “Sübhi Tarihi” əsəri[72] və s.

**“Ədəbiyyat”** adlı ikinci paraqrafda Nadir şah və onun dövrü haqqında tarixşünaslıqda ayrıca bir istiqamət təşkil edən İran müəlliflərinin əsərləri nəzərdən keçirilir.

R.Şabaninin 1994 və 1996-cı illərdə Tehranda nəşr olunan 2 cildlik “Nadir şah Əfşarın ictimai tarixi”[73] monoqrafiyasında Nadir şahın səltənətinin hərtərəfli öyrənilməsinə cəhd göstərilmişdir. Əsər Nadir şahın və son Əfşarilərin həyat və fəaliyyətinə, dövlət, ictimai, iqtisadi quruluşun, habelə Nadir şah dövlətinin qonşu dövlətlər və Avropa ticarət şirkətləri ilə əlaqələrinin araşdırılmasına həsr edilmişdir. 2002-ci ildə nəşr olunan “Nadir şahın dini siyasəti”[74] məqaləsi, eləcə də “Nadir şah Əfşar”[75] monoqrafiyası yenə də həmin müəllifin qələminə mənsubdur.

2006-cı ildə İranın “Shi’ite Studies” jurnalında yayımlanan “Nadir Şah Əfşarın dövründə şiəlik”[76] məqaləsində P.Fətullahpur Nadir şahın dövründəki şiəliyin mövqeyini və vəziyyətini öyrənməyə çalışmışdır. Bu məqalə onunla əlamətdardır ki, ölkənin dövlət quruluşunun islamçı mahiyyəti ilə birbaşa əlaqəsi olan İranın müasir rəsmi tarixşünaslığının Nadir şahın dini-mənəvi vəziyyətinə faktiki baxış bucağını əks etdirir. Sözügedən mövzuda bir sıra əsərlərin

---

[70]Süveydi, A. Hücec-i Kat’iyya (Kelime-I Tevhid), Hak Sözün Vesikalarında /İstanbul: Hakikat Kitabevi, – 2014. – 44 s.

[71]Sırrı, Efendi. Risaletü’t-Tarih-i Nadir Şah ve Makali-i Muhasara-i Kal’a-i Kars /haz. Mehmet Yaşar Ertaş. – İstanbul: Kitabevi, – 2012. – 88 s.

[72]Subhi, Mehmed Efendi. Subhi Tarihi. Sami ve Şakir Tarihleri ile birlikte: 1730-1744 /haz. Mesut Aydiner. – İstanbul: Kitabevi, – 2007. – 927 s.

[73] شعبانی, رضا. تاریخ اجتماعی ایران در عصر افشاریه. جلد ۱. تهران, ۱۳ ۷۷ .

[74] شعنانی، رضا . سیاست مذهبی نادرشاه افشار . وحید۷، ۱۳٤۹, ص.۱۱۳۲-۱۱٥٦

[75] شعبانی رضا. نادرشاه افشار.تهران : دفتر پژوهشهای فرهنگیی،۱۳۸۱

[76] فتح الله پورپرویز، تشیع در دوره نادر شاه افشار. فصلنامه تخصصی شیعه شناسی/ سال چهارم/شماره ۱۳۸٥/۱٦ , ص. ٥۷ _ ۹٥

müəllifi olan İran alimi A.Abdininin "Səfəvi və Əfşarilər dövründə İslam dünyasında birləşmə"[77] (2008) adlı məqaləsi dini islahat siyasətinə əks fikir olaraq göstərilə bilər. Müəllif hesab edir ki, islahatlar üçün zəmin hələ Səfəvilər dövründə hazırlanmışdı.

Şah Ordusunun generalı Ə.Sərdadvarın "Nadir şah Əfşar dövrünün hərbi-siyasi tarixi"[78] kitabında tədqiq olunan dönəmin hərbi tarixinə dair maraqlı materiallar cəmlənmişdir. Nadirin hərbi sənətini araşdıran müəllif onun ordusunun tərkibini hərtərəfli təhlil edir, döyüş taktikası, əsgər hazırlığı, nizam-intizam və döyüş sənəti haqqında dəyərli məlumatlar gətirir. İran tarixçisi doktor M.H.Qüddusinin "Nadir-namə"[79] adlı monoqrafiyası tədqiq olunan dövrün öyrənilməsi üçün heç də az əhəmiyyətə malik deyil. Bu əsər, fikrimizcə, toplanmış materialın tamlığı baxımından araşdırılan dövrə dair İran tarixşünaslığının ən önəmli tədqiqatlarından biridir. M.Ə. Riyahinin "İranda səfirliklər. Səyyahların əsərləri və Osmanlı səfirlərinin İrana ezamiyyətləri"[80] monoqrafiyası nəzərdən keçirilən dövrün xarici siyasət məsələlərinə dair sənədlər bazasını xeyli genişləndirir. Nəzərdən keçirilən dövrün xarici siyasət reallıqlarının ayrı-ayrı aspektləri Əbdül Rza Huşəng Mehdəvinin "İranın Diplomatik Münasibətlərinin Tarixi. Səfəvi hakimiyyətinin başlanğıcından II Dünya Müharibəsinin sonuna qədər"[81] adlı kitabında öyrənilmişdir. İranın ən nüfuzlu tarixçilərindən biri olan Əbdülhüseyn Zərrinkubun "Keçmiş. Pəhləvi Xanədanlığının başlanğıcından süqutuna qədər İran tarixi"[82] adlı monoqrafiyası kifayət qədər tutarlı olmasa da, çıxardığı nəticələrin orijinallığı ilə

77 عابدینی، ابوالفضل. اتحاد جهان اسلام. نامه تاریخ پژوهان، شماره ۱۲، زمستان، تهران، ۱۳۸۷

78 سردادور، ابوتراب. تاریخ نظامی و سیاسی دوران نادرشاه افشار. تهران، انتشارات مرشد، ۱۳۸۰

79 قدوسی, محمد حسین, نادر نامه, خراسان, نشرییت انجمن آثار ملی خراسان، ۱۳۳۹ .

80 ریاحی محمد امین، سفارتنامه های ایران. گزارشهای مسافرت و ماموریت سفیران عثمانی در ایران، تهران، ۱۳٦۸

81 مهدوی، عبدالرضا هوشنگ. تاریخ روابط خارجی ایران از ابتئای دوران صفوی تا پایان جنگ دوم جهانی (۱۵۰۰-۱۹۳۵) تهران: امیرکبیر ، ۱۳۸۱ .

82 زرین کوب، عبدالحسین، روزگاران: تاریخ ایران از آغازتا سقوط سلطنت پهلوی، تهران: سخن ۱۳۷۸ .

seçilir. Həmçinin, N.Larudinin (1384/2005) "Nadir – qılıncın oğlu"[83] monoqrafiyasında qeyd etməliyik. Müəllif Səfəvi və Əfşarilər dövlətlərinin tarixinin müəyyən məqamlarını o dövrün mənbələri əsasında araşdırmışdır.

Bu paraqrafda İran müəlliflərindən Əbdülhüseyn Nəvainin Nadir Şahın hərbi donanmanın yaradılmasının bəzi məsələlərinin baxıldığı "İran və dünya. Monqollardan Qacarlaradək"[84] (2 cild) monoqrafiyası; Zülfüqar Cəlairin Nadir şahın hərbi tarixinə və son Əfşarilərin hakimiyyətinə həsr etdiyi "Nadir şah Əfşarın sərəncamında olan iranlıların qələbələri"[85] (1385) adlı kitabı; Pənahi Səmnaninin "Nadir şah. Faciənin milli şücaətinin əks olunması"[86] (1375/1996) adlı əsəri təhlil edilmişdir. Farsdilli mənbələrin və ədəbiyyatın nəzərdən keçirilməsi və təhlili bu məsələdə müəyyən boşluqların olduğu qənaətinə gəlməyə imkan vermişdir.

**"Səfəvi dövlətinin süqutu və Nadir Əfşarın siyasi meydana çıxması"** adlı ikinci fəsil altı paraqrafdan ibarətdir. Birinci paraqrafda **"Əfqan gilzai qəbiləsinin müdaxiləsinə qədər Səfəvi dövlətinin daxili siyasi vəziyyəti"** nəzərdən keçirilir. Bu paraqrafda Səfəvilər dövlətində XVII əsrin sonu – XVIII əsrin əvvəllərində hökm sürən dağıntı və tənəzzülün ümumi mənzərəsi verilir. Şah Sultan Hüseynin (1694-1722) hakimiyyətə gəldiyi zaman şah hökumətinin feodal mərkəzsizləşməsinin öhdəsindən gələ bilmədiyi vurğulanır. Feodal hakim dairələr yığılan vergilərin çoxunu mənimsəməklə şahın xəzinəsini əyalətlərdən daxil olan gəlirlərdən məhrum edirdi. Şah Sultan Hüseynin hakimiyyət illərində şiə ruhanilərinin rolunda və nüfuzunda yüksəlmə müşahidə olunurdu ki, bu da dini azlıqların vəziyyətinə mənfi təsir göstərirdi.[87] Biz bu

---

83 لارودی نورالله. زندگانی نادرشاه پسر شمشیر، تهران: د نیای کتاب ، ١٣٨٤ .

84 نوایی ، عبدالحسین ، ایران و جهان از مغول تا قاجاریه. جلد ١. تهران: هما، ١٣٦٦

85 جلایر، ذوالفقار. فتوحات ایرانیان به فرماندهی نادرشاه افشار، تهران: انتشارات سخن گستر، ١٣٨٥ .

86 پناهی سمنانی، محمد احمد. نادرشاه باز تاب حماسه و فاجعه ملی، تهران: کتاب نمونه، جلد ١،، تهران، ١٢۴٣

87 سیوری, راجر. ایران عصر صفوی, ترجمه کامبیز عزیزی. تهران, ١٣٦٦ ، ص. ٢١۴

qənaətə gəldik ki, ruhanilərin belə bir yüksəlişi Səfəvi dövlətində sözügedən təbəqənin sonrakı institutlaşması ilə əlaqəli olmuşdu. Dini təqiblər dövlət mexanizminin parçalanmasına və pozulmasına səbəb olurdu.

İkinci paraqraf **“Əfqan tayfalarının müdaxiləsi və Səfəvi dövlətinin süqutu”** adlanır. XVII əsrin ikinci onilliyinin sonlarına doğrua Səfəvi dövləti böhran mərhələsinə qədəm qoymuşdu. Buna 1709-cu ildən bəri dövlətdən ayrılan əfqan tayfalarının aktivliyinin artması da təkan verirdi. Artıq 1719-cu ildə onlar birinci, lakin sona çatmamış yürüş etdilər. 1721-ci ilin oktyabrında Səfəvi dövlətinə qarşı başladıqları ikinci yürüş sonuncunun taleyində məşum rol oynadı. İlkin mənbələrin təhlili söyləməyə əsas veriir ki, bütün dövlət mexanizminin çürüməsi prosesi bu vaxta qədər xeyli dərinə işləmişdi. Aşınma 8 Mart 1722-ci il tarixli Gülnabad döyüşü zamanı açıq şəkildə özünü göstərdi. Həmin döyüşdə müqayisəolunmaz dərəcədə texniki cəhətdən daha zəif təchiz edilmiş Səfəvi ordusu azsaylı əfqan hərbi qüvvələri tərəfindən darmadağın edildi. Əfqanlar qısa müddətdə İsfahana yaxınlaşaraq, onu 8 ay çəkən mühasirəyə aldılar.[88] Şah Sultan Hüseyn, şəhərin mühasirəsinə son vermək üçün 22 oktyabr 1722-ci ildə Mahmudun düşərgəsinə getdi, sonuncunun xeyrinə tacdan imtina etdi.[89] 25 oktyabrda Mahmud gilzai bir qalib kimi İsfahana girdi. 1722-ci ilin noyabrın sonunda İsfahanın təhvili xəbərini alar almaz Qəzvində olan Təhmasib Mirzə şah elan edildi.[90]

---

88 محمد محسن مستوفی ، زبدت التواریخ ،به کوشش بهروز ودرزی، ص. ۱۳۴
.

89 استرآبادی, میرزا مهدی خان. جهانگشای نادری. به اهتمام سید عبدالله انوار، تهران، ۱۳۷۷، ص ۱۵؛ محمد کاظم مروی. عالم آرای نادری. به تصحیح دکتر محمد امین ریاحی، جلد ۱، تهران ۱۳۵۸، ص. ۱،۳۰

90 استرآبادی، میرزا مهدی خان. جهانگشای نادری. به اهتمام سید عبدالله انوار, تهران، ۱۳۷۷، ص. ۱۵؛ محمد محسن مستوفی. زبدة التواریخ. به کوشش بهروز گودرزی، تهران، ۱۳۷۵، ص. ۱۴۱؛ حزین. شیخ محمد علی. تاریخ حزین. شامل: اواخر صفویه – فتنه افغان – سلطنت نادر شاه، اصفهان: انتشارات تأیید، ۱۳۳۲، ص. ۵۶؛ مرعشی، خلیل میرزا محمد. مجمع التواریخ. انتشارات مجله یادگار، تهران، ۱۳۶۸، ص. ۵۹

Üçüncü paraqraf **"Səfəvi dövlətində Rusiya-Osmanlı rəqabəti"** adlanır. Paraqrafda Qafqazdakı Səfəvi ərazilərinin bölüşdürülməsi uğrunda Rusiya ilə Osmanlı İmperiyası arasında mübarizəyə ümumi şəkildə aydınlıq gətirilərək qeyd edilir ki, həmin vaxtadək artıq açıq şəkildə ortaya çıxan Rusiyanın Qafqaza iddialarının həm iqtisadi, həm də geosiyasi səbəbləri mövcud idi. I Pyotr bütün Hindistan-Avropa ticarətini xüsusi əhəmiyyət verdiyi Xəzər dənizinə yönəltməyi planlaşdırırdı. O, Xəzəri bir rus gölünə çevirməyə çalışırdı, belə ki, Xəzər dənizi boyunca Şərqlə ticarətin inkişafı Rusiyaya böyük mənfəətlər gətirə bilərdi.[91]

1715-ci ildə I Pyotr polkovnik A.Volınskini Səfəvi dövlətinə göndərdi. Məhz Volınski Səfəvi dövlətinin çökmə ərəfəsində olduğu qənaətinə gələrək, Pyotru ən qısa zamanda onun mülklərinə hücum etməyə təşviq edirdi. Lakin Pyotr planlarını həyata keçirməyə yalnız 1721-ci ilin avqustunda İsveçlə sülh bağlandıqdan sonra müvəffəq oldu. Öz növbəsində Osmanlı hökuməti Səfəvi torpaqlarının şimal-qərbində rusların irəliləməsinin qarşısını almağa çalışırdı. Səfəvi dövlətində vəziyyətlə tanış olmaq üçün Osmanlı hökuməti 1720-ci ilin avqustunda Volınskinin missiyasına bənzər hədəflər güdən Dürri Əhməd Əfəndini şah sarayına göndərdi. Babi-Ali İsfahanın süqutundan sonra Səfəvi dövlətin digər şəhərlərinin də əfqanların əlinə keçməsindən və Osmanlı İmperiyasının şərq sərhədlərini təhdid etməsindən ciddi şəkildə ehtiyatlanırdı. 22 avqust 1722-ci ildə Səfəvi dövlətinə qarşı müharibə elan edildi.[92]

**"I Pyotrun Səfəvi dövlətinə yürüşü, Xəzəryanı bölgələri ələ keçirməsi və Osmanlı müdaxiləsi"** adlı dördüncü paraqrafda Səfəvi dövlətinin dağılması ilə müşayiət olunan xarici siyasi çarpışmaların panoraması verilir. 1722-1723-cü illərdə döyüş əməliyyatları nəticəsində Səfəvi dövlətinin Xəzəryanı əyalətləri Rusiya hakimiyyətinin əlinə keçdi. I Pyotrun yürüşü Rusiya ilə Türkiyə arasındakı münasibətləri xeyli kəskinləşdirdi. 26 iyul 1723-cü ildə

---

[91] Персидская война 1722-1725 гг., Русский вестник LXVIII, cc. 603-606

[92]Uzunçarşılı, İ.H. Osmanlı tarihi: [11 cilt] – c. 4, bölüm 2: XVIII Yuzyil. – 1988. s. 173; Aktepe, M. 1720 - 1724 Osmanlı – İran Münasibetleri ve Silahşör Kemani Mustafa Ağa'nın Revan Fetih-namesi, – 1970. s. 12-13

general Matyuşkinin başçılığı altında rus qoşunlarının Bakını ələ keçirməsindən dərhal sonra Qars və Diyarbəkirdən yola çıxan türk qüvvələri 1723-cü ilin iyul ayında asanlıqla Tiflisi alıb Gəncə, İrəvan və Naxçıvan üzərinə yeridi.

1724-cü il iyunun 24-də İstanbulda Osmanlı İmperiyası ilə Rusiya arasında müqavilə imzalandı. Müqaviləyə əsasən, Səfəvi dövləti üç hissəyə bölünürdü., Rusiya şimal – Xəzəryanı əyalətlər üzərində nəzarət əldə edirdi. Gürcüstan, Şirvan və Azərbaycan – Kür və Araz qovşağından düz xətlə 3 mil məsafədə Ərdəbilə, sonra Təbrizə, Həmədana və Kirmanşaha qədər ərazilər, eləcə də bu xətt boyunca bütün şəhər və vilayətlər Osmanlı İmperiyasına keçirdi.[93] Lakin Şah Təhmasib İstanbul müqaviləsini tanımaqdan imtina etdi. Bu arada, 1725-ci ilin sonlarınadək Osmanlı qoşunları Xəzəryanı əyalətlər xaricində Azərbaycanın şimal və cənub ərazilərinin işğalını faktiki olaraq başa çatdırdı.

2 oktyabr 1727-ci ildə osmanlılarla əfqanlar arasında Həmədan Müqaviləsi imzalandı. Bu sazişə görə Əşrəf Sultanın müsəlman dünyasındakı üstünlüyünü tanıyaraq, 1722-1724-cü illər arasında ələ keçirilən Səfəvi torpaqları, o cümlədən Həmədan, Kirmanşah, Ərdəlan, Luristan, Marağa, Nəhavənd, Təbriz, Xoy, Zəncan, Gəncə, Qarabağ, Tiflis, Naxçıvan, Şirvan üzərində Osmanlı İmperiyasının əbədi nəzarətini təsdiqlədi. Türklər də öz növbəsində əfqanların ələ keçirdikləri Səfəvi ərazilərində hakimiyyətlərini tanıyırdılar. Beləliklə, rəsmi surətdə İran şahı olaraq tanınan Əşrəf qanunilik əldə etmiş olurdu.

1729-cu ilin fevralında Rəştdə Əşrəf və ruslar arasında saziş imzalandı. O, 1723-cü ildə Şah Təhmasibin səfiri tərəfindən Sankt-Peterburqda imzalanmış müqaviləni təsdiqləyirdi, yalnız Mazandaran və Astrabad Şamaxı ilə əvəzlənirdi.

Beşinci paraqraf **“Nadir Əfşarın siyasi meydana çıxması və əfqanların Səfəvi dövlətindən qovulması”** adlanır. Yuxarıda adı

[93]Aktepe, M. 1720-1724 Osmanlı – İran Münasibetleru ve Silahşör Kemani Mustafa Ağa’nın Revan Fetih-namesi / İstanbul: Istanbul Üniversitesi, – 1970, s. 30

çəkilən paraqrafda, Əşrəflə Rusiya arasındakı saziş qüvvəyə minməyə macal tapmadı. Farsdilli mənbələrə görə, 1726-1727-ci illərdə Əfşar tayfasından olan Əbivərd hakimi, yadellilərə qarşı azadlıq hərəkatının başına keçən Nadirqulu xan öz qoşunları ilə Şah Təhmasibə qoşuldu.[94] 1729-cu ilin sentyabr-noyabr aylarında Nadirqulu xan üç həlledici döyüşdə əfqan işğalçılarını məğlub etməyə müvəffəq olduqdan sonra Əşrəfin hakimiyyəti nəhayət süqut etdi. Onun birbaşa iştirakı ilə 1729-cu ilin sonunda II Şah Təhmasibin hakimiyyəti bərpa edildi.

**“Səfəvi dövlətinin Osmanlı və Rusiya işğalından azad edilməsi və Nadiri şahın tacqoyma mərasimi”** adlanan altıncı paraqrafda Səfəvi dövlətinin işğalçılardan təmizlənməsi prosesi araşdırılır. Ölkəni əfqanlardan azad edən Nadir, ilk növbədə diqqətini türklərin işğal etdiyi qərb bölgələrinə yönəltdi. Dissertasiyada Nadirin 1730-cu ilin yay-payızında Osmanlı qoşunlarına qarşı hərbi əməliyyatlarının gedişatı təsvir edilir. Əməliyyatlar nəticəsində Luristanı, Kürdüstanı, Kirmanşahı və qismən Azərbaycanı Osmanlı qüvvələrindən azad etmək mümkün oldu.

Eyni zamanda, Rusiyanın ələ keçirdiyi ərazilərin işğaldan qurtarılması üçün addımlar atılırdı. Zənnimizcə, bu dövrdə Rusiya ilə münasibətlərdə iki strategiya vardı: Şah Təhmasibin təmsil etdiyi birinci strategiya Rusiyanı Osmanlı və əfqanların təcavüzkar niyyətlərinə qarşı qarant görürdü. Buna görə də rəsmi saray Rusiya ilə münasibətlərdə maksimum güzəştlərə getməyə razı idi. Nadirin əməl etdiyi başqa bir xətt isə rusların ələ keçirdiyi ərazilərin tamamilə azad edilməsini nəzərdə tuturdu.

Xəzəryanı vilayətlərin azad edilməsi ilə bağlı Rusiya hökuməti ilə danışıqlar aparmaq üçün Nadir 1730-cu ildə öz səfiri Mirzə

---

[94] استرابادی، میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار,تهران، ۱۳۷۷ ، ص. ۵۶-۵۷؛ آسترآبادی ، میرزا مهدی خان. دره نادره. به اهتمام صیاد جعفر شهیدی. تهران: شرکت انتشارات علمی و فرهنگی، ۱۳۸۴، ص. ۱۸۶-۱۸۷؛ قزوینی، عبدالحسین، فواعد الصفویه، به تصقیح مریم میر احمدی، تهران، ۱۳۲۲ ، ص. ۱۴۹؛ محمد محسن مستوفی ، زبدت التواریخ ،به کوشش بهروز گودرزی، ۱۴۴-۱۴۵؛ محمد هاشم رستم التواریخ به تصحیح محمد مشیری تهران، ۱۳٤۸ .

İbrahim xanı Moskvaya göndərdi. Lakin bu səfirlik Moskvadan əliboş geri döndü. Nadir eyni vaxtda üç istiqamətdə savaşdığına görə səylərini növbələməli olurdu.1730-cu ilin noyabrında Şah Təhmasib Nadirin təsirindən çıxmaq məqsədi ilə Osmanlı qoşunlarına qarşı müstəqil əməliyyatlara başladı, lakin Kürican (Kürdixan) döyüşündə mğlub olaraq İsfahana çəkilmək məcburiyyətində qaldı.[95] Türklərlə sülh danışıqlarını davam etdirməklə yanaşı, o, 1731-ci ilin sentyabrında Osmanlı ordusu üzərinə daha bir uğursuz hücum cəhdi etdi, lakin Həmədanı, Urmiya və Təbrizi itirdi. Şah Təhmasibin məğlubiyyəti və türklərlə son dərəcə ağır müqavilə imzalaması ona gətirib çıxardı ki, Rusiya nümayəndələri ilə Xəzəryanı əyalətlərdən qoşunların çıxarılması ilə bağlı danışıqlar heçə endirildi. Bu kampaniya faktiki olaraq Səfəvi dövlətində ikihakimiyyətliliyin ləğv edilməsinə gətirib çıxardı: təşəbbüsü öz əlinə alan Nadir sözügedən müqaviləni ləğv etdi və 1732-ci ilin avqust ayında Təhmasibi devirərək, sonuncunun azyaşlı oğlu III Abbası taxta oturtdu, özünü isə onun yanında naib (regent) elan etdi.[96]

Dissertasiyada Nadirin 1733-1734-cü illərdə Osmanlı ordusuna qarşı apardığı hərbi əməliyyatların gedişatı ətraflı təsvir olunur. Nadir osmanlılara qarşı növbə ilə Qafqazda və İraqda savaşırdı. Nəticədə Gəncə, İrəvan, Tiflis 1735-ci ilin oktyabrına qədər Nadirin əlinə keçdi.[97] Osmanlı İmperiyası son 10 ildə işğal etdiyi bütün torpaqları tez bir zamanda geri qaytarmağı vəd etdi. Dövlətlər arasındakı sərhədlər Gəncə, Şirvan, İrəvan və Tiflisin Səfəvi dövlətinə keçdiyi Qəsri-Şirin müqaviləsinin müddəaları əsasında müəyyənləşdirilirdi. Osmanlılara qarşı döyüş əməliyyatları aparmaqla eyni vaxtda Nadir ruslarla danışıqlar aparırdı. Parlaq

---

[95] محمد محسن مستوفی ، زبدت التواریخ ، به کوشش بهروز گودرزی ، تهران ، ۱۳۷۵ ، ص. ۱۵۶

[96] مینورسکی، ولادیمیر. تاریخچه نادرشاه، ترجمه رشید یاسمین: تران: امیر کبیر، ۱۳۱۳ ، ص. ۳۵؛ هدایت، رضاقلی خان، روضه الصفای نسیری، جلد ۸ ،تهران: مرکزی / قیام/ پیروز، ۱۳۳۹ ، ص ۵۳۴ .

[97] Гюлистан-е Ирам, 146; Uzunçarşılı, Osmanlı Tarihi, s. 854; محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، جلد ۱، ص ۴۰۱؛ محمد کاظم، عالم آرای نادری نامه، دفتر ۱، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦٥ ، ص ۱، ۳۰.

diplomatik gedişlərin nəticəsi olaraq 1735-ci il martın 20-də Gəncədə Səfəvi dövləti və Rusiya arasında sülh müqaviləsi bağlandı. Bu saziş rus qoşunlarının Səfəvi mülklərindən çıxarılmasını rəsmiləşdirdi.

Beləliklə, 1730-cu illərin ortalarında Nadir 1720-ci illərdə Rusiya ilə Osmanlı imperiyası tərəfindən işğal edilmiş Səfəvi torpaqlarını geri qaytarmağa nail oldu. Bununla da o, şah taxtına gedən yolda maneələri aradan qaldırdı. Nadir 24 şəvval 1148/ 8 mart 1736-cı ildə Muğan çölündə qədim türk adəti ilə təşkil olunmuş qurultayda təntənəli şəkildə şah seçildi.

**“Nadir şahın dini, hərbi və idarəçilik islahatları”** adlanan üçüncü fəsil dörd paraqrafdan ibarətdir. **“Nadirin hakimiyyətə gəlməsinin qanuni yollarının axtarışı və Cəfəri məzhəbini Əfşarilər dövlətinin yeni dövlət dini kimi bəyan edilməsi”** adlı birinci paraqrafda Nadirin hakimiyyətə iddiasının mənəvi-ideoloji əsaslarının müəyyənləşdirilməsi kontekstində səltənətə başlaması şərtləri araşdırılır. Tacqoyma mərasiminədək Nadir ölkəni əvvəlki sərhədləri daxilində bərpa edə bilmişdi. Biz qeyd etməliyik ki, ikihakimiyyətlilik idarəçiliyə qarışıqlıq və ixtilaf gətirməklə dövləti təhdid edirdi, belə ki, ənənəvi cəmiyyətdə yalnız mütləq hakimiyyət padişaha legitimlik qazandırır. Bu baxımdan Nadirin əsaslandırılmamış şəkildə hakimiyyətə gəlməsi birincisi, çevriliş, hakimiyyəti qəsb etmək kimi qəbul oluna bilərdi. İkincisi, xüsusən ölkədə keçmiş hakim sülalənin xeyli sayda tərəfdarının olduğunu nəzərə alsaq, xarici qüvvələrin İrana müdaxiləsi halında Səfəvi şahı onların əlində bir marionetə çevrilə bilərdi.

Məlum olduğu kimi, Nadir öz hakimiyyət məqsədinin təsdiqini qurultay – müxtəlif qəbilələrin və əhalinin sosial təbəqələrinin nümayəndələrinin iştirakı ilə bir növ böyük məclis çağırmaqla həyata keçirdi. Səfəvilərin hakimiyyəti müəyyən mənada sakral (müqəddəs) prinsiplərə söykənirdi. Ona görə də Nadir geniş sosial təbəqələrin bir növ səs verməsi sayəsində özünün hakimiyyət arzularını qanuniləşdirəcəyinə ümid bəsləyirdi.

Nadirin taxtı qəbul etməsi üçün qurultay iştirakçıları qarşısında irəli sürdüyü şərtlərin təhlili aşağıdakı nəticələrə gəlməyimizə imkan verdi: 1) Nadir Səfəviləri hər hansı bir şəkildə öz səltənətini bərpa

etmək şansından məhrum etmək niyyətində idi; 2) O, sünni ruhani çevrələri tərəfindən Cəfəri məzhəbinin tanınmasına nail olmaqla, qarşısına islamda konfessional parçalanmanın kəskinliyini zəiflətmək vəzifəsini qoyurdu. Bu isə öz növbəsində ölkədəki məzhəblərarası düşmənçiliyi yumşaltmaqla, həm klerikal yuxarı dairələrin rolunu həm də Osmanlı İmperiyası ilə Əfşarilər dövləti arasındakı ədavətin kəskinliyini azaldırdı.

1736-cı il martın 8-də Muğan çölündə keçirilən qurultayda tələbləri qəbul edildikdən sonra Nadir təntənəli şəkildə şah seçildi.[98] Bundan sonra, Nadirin şərtlərindən birinə görə, Əfşarilər dövlətinin sakinləri, Cəfər əs-Sadiq məzhəbinin ardıcıllarına çevrilməli və sünnilər üçün təhqiredici olan "səbb" və "rəfd" şiə praktikalarından imtina etməli idilər.

Bu mövzu öz təfsilatı ilə öz inkişafını **"Nadir şahın dini konsepsiyası"** adlı ikinci paraqrafda tapır. Hər şeydən əvvəl qeyd edilir ki, Lokhart və bəzi digər tədqiqatçıların fikrinin əksinə olaraq Nadir yeni bir dövlət ideologiyası- cəfəriliklə sünniliyin hökmranlığının bərqərar olmasına can atmırdı. Nadir şahın nəzərdə tutduğu dini islahatı daha dolğun anlamaq üçün biz Cəfəri məzhəbi, daha doğrusu Nadirin özünün bu təlimə verdiyi məzmun üzərində bir qədər ətraflı dayandıq. Bu zaman qeyd edilir ki, Nadir şahın dini konsepsiyasında fundamental bir ziddiyyət – şiəliyin imamçılıq fəlsəfəsindən imtina var idi. Məhz bu imtina onun doktrinasının uğursuzluğunu əvvəlcədən müəyyənləşdirdi. Həqiqətən, Cəfər əs-Sadiq Əbu Hənifə və ya Əş-Şafii kimi sünni hüquq məktəblərinin qurucularına bərabər və füru'atın tanınmış tərtibçilərindən biri olaraq sayılarsa, o zaman 12 imamın İslamın ezoterik ölçülməsini ötürən yeganə qanuni mühafizi və təfsirçisi kimi funksiyasını itirəcəkdi. Bu,

---

98 استرابادی, میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار,تهران، ۱۳۷۷ ، ص. ۲۷۱؛ آسترآبادی میرزا مهدی خان. دره نادره. به اهتمام صیاد جعفر شهیدی. تهران: شرکت انتشارات علمی و فرهنگی، ۱۳۸۴ ، ص ۳۷۰؛ تهرانی، محمد شفیع. تاریخ نادرشاهی، به اهتمام رضا شعبانی، تهران انتشارات بنیاد فرهنگ ایران، ۱۳۴۹ ، ص ۴۳-۴۴؛ محمد محسن مستوفی ، زبدت التواریخ ،به کوشش بهروز گودرزی، تهران ، ۱۳۷۵ ، ص ۱۶۶؛ محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، جلد ۲، تهران، ۱۳۵۸، ص ۴۴۶ .

sünni dini təliminə böyük güzəşt idi. Lakin belə bir güzəşt əhalisinin əksəriyyətinin sünniliyə etiqad edən nəhəng imperiyanın idarəçiliyinə dair Nadirin iddialı planlarının həyata keçirilməsi ilə bağlı idi.

Nadir şah sünni təriqatının başçısı olaraq Osmanlı dövlətindən şiəliyin yeni – Cəfəri məzhəbi görünüşündə tanınmasını tələb edirdi. Bu tanınmanın isbatı kimi o, digər tələblər də irəli sürürdü: Kəbədə 4 sünni məktəbi ilə yanaşı, İmam Cəfər Sadiq məktəbinin tanınmasının xarici rəmzi olaraq, beşinci məqamın qurulması; Şam üzərindən İrandan Məkkəyə gələn zəvvarları müşayiət etmək üçün iranlıların başçısı – "əmir əl-Həcc"ın karvana təyin olunması; İranlı hərbi əsirlərin azad edilməsi və səfir mübadiləsi.[99] 1736-cı ildə aparılan danışıqlar nəticəsində Nadir şah türklərdən müəyyən güzəştlərə və bəzi şərtlərinin qəbul edilməsinə, o cümlədən Kəbə daxilində Cəfəri məzhəbinin ardıcılları üçün ibadət yerlərinin ayrılması tələbinə nail ola bildi: bundan sonra Cəfərilər Şafiilərlə birlikdə ibadət edə bilərdilər. Həmçinin bəzi şərtlərlə iranlı zəvvarların illik həcc ziyarətinə gedən karvanının lideri (əmir əl-həcc) olaraq bir iranlının təyin edilməsi tələbi də qəbul edildi.

Dissertasiyada 1743-cü ildə Nəcəfdə Nadir şahın yanında şiə və sünni ilahiyyatçıların iştirakı ilə baş tutan dini disputun gedişatı ətraflı şərh olunur. Əslində bu, xristian dünyasındakı Ümumdünya kilsə məclislərinə bənzər bir müşavirə idi. 1743-cü il dekabrın 11-də müşavirə iştirakçıları M. Astarabadi tərəfindən tərtib edilmiş sənədi – "vəsiqənamə"ni imzaladılar. O, Əfşarilər tərəfdən 41 şiə xadimi və İraqdan, Mavərənnəhrdən, Əfqanıstandan olan 27 sünni və şiə təriqətinin alimləri tərəfindən qəbul edildi. Sənəddə dörd xəlifənin hamısının idarəçiliyinin qanuniliyi, eləcə də "səbb" və "rəfd"in yasaqlanması vurğulanırdı. Sünni alimlər də öz növbəsində şiə ruhanilərinin təminatlarının qəbul edildiyini və Əfşari şiələrini kafir saymaqdan imtina etdiklərini elan edirdilər. Lakin Osmanlı hökumətinin əks təsiri nəticəsində əsas dini vəzifə – şiəliklə sünnilik

---

[99] استرابادی, میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار, تهران، ۱۳۷۷، ص ۲۷۰

arasında münasibətlərin bərpası baş tutmadı. Osmanlı hökuməti Nadirin dini təşəbbüslərindən doğan ideokratik təhlükəni gözəl anlayırdı və buna görə də həmin təşəbbüslərə qarşı fəal hərəkətə keçmişdi.

Üçüncü paraqraf **"Nadir şahın hərbi islahatları"** adlanır. Bəlli olduğu kimi, bu və ya digər dərəcədə hərbi sahə ilə əlaqəli istənilən əməl, Nadir şahın bütün həyatının mənasını təşkil edirdi. Bu paraqrafda qeyd edilmişdir ki, 1726-cı ildə Nadir Təhmasibə qoşulduqdan sonra o, sanki eyni struktur komponent başlanğıclarına əsaslanaraq, yeni idarəetmə qərarlarına və ən yüksək intizama arxalanaraq, Səfəvi ordusunu yenidən yaratmağa başladı.

Səfəvilər kimi Nadir şahın ordusu da əsasən köçəri çoban tayfalarından toplanmış, yüngül zireh geyinmiş, nizə və və gordalarla silahlanmış süvarilərdən ibarət idi. Bundan əlavə, orduda tüfəng, yəni fitilli muşketlə silahlanmış və kəndlilərdən toplanmış piyada qüvvələr də vardı; onlar irəliləmək üçün atdan istifadə edir və hərəkətdə atəş açan böyük muşketlərlə (cəzayir) silahlanmışdılar. Cəzayirçilər, arkebuzçular başlıca olaraq zəmburak – xüsusi dəvə yəhərinə quraşdırılmış və heyvanın belindən atəş açmağa imkan verən kiçik çaplı toplardan istifadə edirdilər. Ətrafında artilleriyanı yerləşdirməyi və süvarilərlə manevr etməyi mümkün edən sabit dayaq məntəqəsini təmin etməkdən ötrü güclü odlu silahlara sahib olan bu piyada sisteminin inkişafı Nadirə abdali atlılarını yenməyə imkan verdi.

Dissertasiyada biz Nadir şahın görkəmli hərbi qabiliyyətlərinin, habelə islahatlarının bəhrələrinin xüsusən aydın təzahür etdiyi bəzi mühüm döyüşlər üzərində ətraflı dayanmışıq. Bu döyüşlərin təhlili Nadir ordusunun aşağıdakı şərtlərə görə üstünlük qazandığını söyləməyə əsas verir: 1) uzun məşqlər və təlimlər sayəsində Əfşarilər ordusu inanılmaz nizam-intizam və uzlaşma əldə etdi; 2) Nadir qoşunlarına yüksək dərəcədə taktiki savadlılıq və səriştəlik aşılamışdı; bu, onun ordusunu rəqib ordularından müsbət mənada fərqləndirən keyfiyyət idi; 3) qoşunlar daha çox mütəhərriklik və manevr qabiliyyəti ilə seçilirdi ki, bu da onların döyüş meydanında daha çevik və bacarıqla hərəkət etmələrini təmin edirdi; 4) komanda

heyətinin mövcud seçim sistemi karyera nərdivanında irəliləmələri üçün yüksək mobilliyi nəzərdə tuturdu; 5) orduda təşəbbüskarlıq təşviq edilirdi, bu da aşağı komanda heyətində müstəqil taktiki qərarlar qəbul etməkdə tədbirliliyin inkişafına kömək edirdi; 6) hərbi kəşfiyyat mükəmməl təşkil edilmişdi.

Nadirin döyüş aparmaq taktikasının bəzi xüsusiyyətləri belə ümumiləşdirilə bilər: 1) ərazinin kəşfiyyatı və qoşunların mövqe tutması üçün relyef xüsusiyyətlərindən maksimum istifadə; 2) döyüşün gedişində qoşunların daimi manevrləri. Nadir məhz sistemli və məqsədyönlü şəkildə öz bölmələrini hərəkət etdirərək, döyüş zamanı istədiyi konfiqurasiyaya nail olurdu; 3) avtomatizmədək gətirilib çıxarılmış topçu, piyada və süvari qoşunlarının uzlaşmış hərəkətləri. Manevr edən artilleriya rəqib ordularda olduğundan daha müstəqil və əhəmiyyətli funksiya yerinə yetirirdi; 4) Nadir məharətlə cinah üstünlüyü yaradaraq, bununla da düşmənin müdafiə xəttini uzadır və onu yarmaq üçün şərait yaradırdı; 5) taktiki incəliklərdən biri də əsas qüvvələrin ustalıqla maskalanması idi; 6) ehtiyatların savadlı şəkildə idarə olunması. Nadir döyüşə yeni ehtiyatları daxil etməyin lazım olduğu anı dəqiqliklə hesablayırdı.

Nadirin bəzi hərbi qərarları – yüngül süvari və tüfəngçilərin ön plana çıxarılması, qoşunların manevr qabiliyyətinin yüksəldilməsi, həlledici taktiki anadək düşməni əldən salmaq üçün güclü topçu korpusu, ağır süvari qüvvələrinin güclü ehtiyatı – müəyyən dərəcədə öz zamanını qabaqlamışdı. Nadir şah taktiki vəzifələri imperiya quruculuğu və bu prosesə uyğun səylər kontekstində qəbul edilən strateji məqsədgüdmələr çərçivəsi xaricində nəzərdən keçirmirdi.

Lakin dissertasiyada qeyd edildiyi kimi, Nadirin hərbi inqilabı Avropada olduğu kimi iqtisadiyyatın, istehsal münasibətlərinin mahiyyətcə yenidən qurulmasına gətirib çıxarmadı. Məhz belə yenidənqurmanın nəticəsi idi ki, XVIII əsrin ikinci yarısından etibarən müsəlman dövlətlərinin Avropanın aparıcı ölkələrindən texniki (daha geniş planda isə iqtisadi və siyasi) geriliyi sürətlə artırdı.

**“Nadir şahın dövründə dövlət idarəetmə sistemi və hərbi iqtisadiyyat”** adlanan dördüncü paraqrafda Nadir şahın dövlət-

iqtisadi islahatları ilə bağlı məsələlər nəzərdən keçirilmişdir. Nadir şahın siyasi rejimini səciyyələndirmək üçün geniş izahla “militokratiya” konseptindən istifadə etdik. Fikrimizcə, hər hansı bir qərarın qəbulundan sosial-iqtisadi tədbirlərədək bütün dövlət idarəetmə mexanizminə nüfuz edən hərbi mülahizələrin mütləq üstünlüyü Nadir şah dövlətinin siyasi sisteminin xarakterinə müəyyənləşdirici təsir göstərmişdi.

İnzibati məsələlərdə Nadir şah Səfəvilərin təcrübəsini davam etdirsə də, onu əhəmiyyətli dərəcədə yeniləşdirmişdi. Dörd vilayət təsis edilmişdi: Azərbaycan (buraya Azərbaycanın özündən başqa Cənubi Qafqazın Əfşarilər dövlətinin nəzarətində olan bütün əraziləri, o cümlədən Gürcüstan daxil idi), İraq (Fars), Xorasan və Fars. Mərkəzi hökümət “dəftərxanayi-hümayun” simasında mövcud idi. Nadir lap başlanğıcdan hakimiyyət strukturunun möhkəmləndirilməsinə yönəlmiş xətt yürüdürdü ki, bu da yerlərdə mərkəzi hökumətin nüfuzunun güclənməsinə gətirib çıxarmışdı. Nadir köhnə (Səfəvi) bürokratiyaya müəyyən inamsızlıqla yanaşırdı. Bu səbəbdən sözügedən dönəmdə A.Lambtonun “qəbilələrin dirçəlişi”[100] kimi təyin etdiyi fenomenin şahidi oluruq.

“Aləm-arayi-Nadiri”yə görə, bütün vergilər vergi dəftərlərində təsbit olunmuş daimi və qeyri-daimi olaraq iki qismə bölünürdü.[101] Artıq qeyd edildiyi kimi, ordu cəmiyyətdə xüsusi yer tuturdu, buna görə də Əfşarilər dövlətində vergi və rüsumların “əsas payının” nəhəng ordunun saxlanmasına yönəldilməsi təəccüblü deyildi.[102] Müəyyən məqamadək Nadir şahın maliyyə və vergi siyasəti dövlətin maliyyə vəziyyətinə əlverişli təsir göstərdi. Gəlir və xərclər üzərində ən ciddi nəzarət, əvvəllər yerli feodallar və məmurlar tərəfindən talan edilən mədaxillərin əhəmiyyətli dərəcədə dövlət xəzinəsinə yönəldilməsinə imkan yaratdı. Nadir dövründə vəqf torpaqlarının

---

[100] Lambton, Ann K. S., ‘The Tribal Resurgence and the Decline of the Bureaucracy in the Eighteenth Century’, p. 108-109

[101] محمد کاظم مروی. عالم آرای نادری، به تصحیح دکتر محمدامین ریاحی، جلد ۳، تهران، ۱۳۵۸، ص. ۱۰۵۱.

[102] محمد کاظم، نامه عالم آرای نادری ، دفتر ۱، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦٥، ص. ۱۹۵،

əhəmiyyətli bir hissəsi dövlət torpaqlarından məsul idarəyə verilmişdi. Müsadirə edilən təsərrüfat torpaqları, "Rəkabəti-Nadiri" kimi tanınan xüsusi "Torpaq Kitab"ına daxil edilirdi.[103] Dövlət torpaqları fondu həmçinin özəl mülkiyyət torpaqlarının alınması yolu ilə də artırılırdı.

Beləliklə, XVIII əsrin 30-cu illərində Nadir şahın inzibati və iqtisadi tədbirləri ümumən götürüldükdə mütərəqqi xarakter daşıyırdı. Müəyyən dərəcədə biz bu tədbirləri "mütləqiyyətçi modernləşmə" adlandırdığımız fenomenin təzahürləri kimi səciyyələndirə bilərik.

Nadir şahın iqtisadi siyasətini təhlil edərək belə qənaətə gəldik ki, birincisi, onu, siyasi rejiminin ardınca, militokratik kimi səciyyələndirmək mümkündür, belə ki, o, ümumən hərbi vəzifələrə tabe etdirilmişdi. İkincisi, iqtisadi tədbirlər mərkəzləşdirilmiş dövlətin möhkəmləndirilməsinə yönəlmiş ümumi strateji kursla sıx əlaqəli idi və bu, hər hansı bir əlahiddəliyin təzahürləri ilə mübarizə demək idi. Üçüncüsü, maliyyə işlərinin qaydaya salınmasına xüsusi önəm verilirdi: bu sahədə görülən tədbirlər vergi gəlirlərini artırmaq məqsədi daşıyırdı. Dördüncüsü, Nadir şahın rasional və məqsədyönlü fəaliyyət qismində iqtisadi siyasəti Dağıstan yürüşü ilə sona çatdı. Bundan sonra Nadir, mahiyyət etibarilə repressiv səciyyəli fövqəladə tədbirlərə keçdi ki, onlar məhsuldar qüvvələri kökündən sarsıtdı və əhalini müstəsna səfalətə qərq etdi.

**"Nadir şahın Osmanlı İmperiyası, Moğol İmperiyası ilə xarici siyasi münasibətləri, Mərkəzi Asiya və Dağıstana yürüşlər"**adlı dördüncü fəsil dörd paraqrafdan ibarətdir. **"Osmanlılarla qarşılıqlı münasibətlər"** adlanan birinci paraqrafda qeyd olunur ki, tərəflər arasında prinsipial fərqlərin ortaya çıxdığı 1736-cı ildə sülh müqaviləsi üzrə danışıqların gedişatı şərh olunur. Nadir üçün mənəvi-dini sahə ilə bağlı məsələlərin həlli başlıca vəzifə idi. Lakin Osmanlılar əmlak məsələlərinə diqqəti yönəldirdilər, belə ki, dini

---

[103]Lambton, A.K.S. Landlord and Peasant in Persia. A Study of Land Tenure and Land Revenue Administration / London: Oxford University Press, – 1991. p. 131

məsələlərin müzakirəsini özlərinin müsəlman (sünni) dünyasındakı mənəvi-siyasi hökmranlığına qəsd kimi dəyərləndirirdilər.

1736-cı ildə aparılan sülh danışıqlarında sərhədlər 1639-cu il tarixli "Zuhab müqaviləsi" əsasında təsdiq edildi. Həmçinin qəbul edilmiş qərarlara görə, osmanlılar İranlı zəvvarların əmir əl-həccin rəhbərliyi altında əl-Hasa (Lahas) və Nəcəf üzərindən Məkkəyə keçməsini təmin edrdilər; hər iki dövlətin paytaxtında nümayəndəliklər açılırdı; hərbi əsirlər sərbəst buraxılırdı, onların köləliyə satılması belə qadağan edilirdi.

Lakin Nadir şah danışıqların nəticələrindən və türklərin beş təklifdən hamısını deyil, yalnız üçünü qəbul etməsindən narazı qalmışdı. Çözülməmiş məsələlərə dair müzakirələri davam etdirmək üçün Nadir 1739-cu ilin əvvəlində İstanbula gəlib çatan yeni bir səfirlik göndərdi. Nadir məktubunda Osmanlı Sultanının şərti-nisbi dini başçılığına yalnız sonuncunun onu bərabər statuslu tərəf kimi qəbul edəcəyi təqdirdə razılıq verəcəyini bildirmişdi. Məktubda Əfşarilər hökmdarı dini məsələlərin onun üçün birinci dərəcəli əhəmiyyətini bir daha vurğulayırdı.

Nadir şahın Mərkəzi Asiyada və Hindistanda hərəkətləri Osmanlı sarayını olduqca narahat edirdi. Dağıstan cəbhəsindən gələn Nadir ordusunun ruh düşkünlüyünə məruz qalması və davamlı qüvvələr göndərilməsini tələb etməsi barədə xəbərlər Babi-Alinin müharibə hazırlıqlarını daha da gücləndirdi. Nadir şahın hücum edəcəyi təqdirdə Əfşarilar dövləti ilə müharibəyə dair 30 aprel 1742-ci ildə Osmanlı Şeyxülislamından fətva gəldi.[104]

İyun ayında Nadir şahın qoşunları Osmanlı İraqına daxil oldular [105]. Bağdadı mühasirəyə alan Nadir Cəfərilər məzhəbinin tanınması üçün yenidən tələb irəli sürdü. Lakin Osmanlı hökuməti yenidən rədd cavabı verdi. 1743-cü ilin sonlarına doğru Bağdad yaxınlığında sülh müqaviləsi layihəsi tərtib olundu.[106]

---

[104]Uzunçarşılı, İ.H. Osmanlı tarihi: [11 cilt] / Ankara: Türk Tarih Kurumu Yayınları, – c. 4, bölüm 2: XVIII Yuzyil. – 1988, s. 301

[105]محمد کاظم، نامه عالم آرای نادری ، دفتر ۱، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦۵، ص ۷۷۸.

[106]Hurewitz J.C., Diplomacy in the Near and Middle East: a Documentary Record: 1535-1914, vol. 1, Princeton: D. Van Nostrand Co., 1956, p. 21-23

Əfşarilər dövlətində iğtişaşların artmasını diqqətlə izləyən Osmanlı hökuməti yalançı Səfi Mirzəyə arxalanmaqla, yeni müharibəyə hazırlaşırdı. 1744-cü ilin yayında Qars bölgəsində hərbi əməliyyatlar başladı. Bəlli olduğu kimi 1745-ci ilin avqustunda Nadir şah Qars yaxınlığında iki dəfə Osmanlı ordusunu darmadağın etdi. Əfşarilər dövlətinin müxtəlif yerlərində xalq kütlələrinin kütləvi çıxışları 1746-cı ilin yanvar-fevral aylarında Nadir şahı barış təklifləri olan məktubla Fətəli Xan Türkməni Bağdad hakimi Əhməd Paşanın yanına göndərməyə məcbur etdi. Bu dəfə o, dini tələbləri ilkin şərt kimi irəli sürməkdən imtina edirdi. Cəfəri məzhəbinin tanınması və bu məzhəbi bildirən rüknün Məkkədə qurulması məsələlərində Nadirin bu güzəşti, onun İslam dünyasının ikinci aparıcı mənəvi mərkəz roluna və statusuna iddialarından faktiki olaraq imtina etməsi demək idi. Əfşarilər dövlətinin ayrı-ayrı bölgələrində iğtişaşların və çıxışların artması, eləcə də iqtisadi dağıntılar üzündən şərait kökündən dəyişmişdi və Nadirin bu durumda əvvəlki tələblərə israr etməsi tamamilə mənasız idi. 1746-cı il sentyabrın 4-də Kurdanda 1639-cu il "Qəsri Şirin müqaviləsi"nin maddələri əsasında hazırlanmış sülh müqaviləsi bağlandı.

Öz qonşusuna münasibətdə Nadir şah ciddi ekspansionist məqsədlər güdmürdü. Nadirin qarşısına qoyduğu əsas vəzifə iki dövlət arasında möhkəm, dayanıqlı və qarşılıqlı faydalı maraqlara əsaslanan uzunmüddətli sülhə nail olunması, habelə Əfşarilər dövlətinin müsəlman dünyasının osmanlılarla bərabər əhəmiyyətli mərkəzi kimi tanınması idi.

İkinci paraqraf **"Moğol imperiyası ilə münasibətlər"** adlanır. Nadir Səfəvilərin xidmətinə daxil olduqdan sonra moğollarla münasibətləri bərpa etməkdən ötrü addımlar atmağa başladı. Hələ 1730-cu ilin yanvar-fevral aylarında o, Şah II Təhmasibin adından Dehliyə "*Qəndəhar əfqanlarına qarşı səyləri birləşdirmək üçün Moğol imperatorunu razı salmaq*" təlimatı verilmiş heyət göndərdi.[107] Lakin Məhəmməd Şah nəinki İran tərəfinin istəklərini cavablandırmadı, üstəlik, səfiri 2 il Moğol sarayında saxladı.

---

[107] استرابادی, میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار، ص. ۱۱۴.

II Təhmasibin hakimiyyətdən kənarlaşdırılmasından sonra Nadir ikinci missiyanı məktubla Dehliyə göndərdi. Orada Nadir əfqanlarla birgə mübarizə haqqında tələbini yenidən sərt şəkildə qoydu. Cavabında Məhəmməd şah bildirirdi ki, böyük Moğol ordusu artıq Kabildə yerləşdirilmişdir və əfqanlar Moğol sərhədini keçə bilməzlər. Əslində Moğol hökmdarı bununla demək istəyirdi ki, o, qiyamçı əfqan tayfaları ilə fəal mübarizə aparmaqdan imtina edir.

Taxta çıxdıqdan sonra Nadir diqqətini Əfqanıstana və Mərkəzi Asiyaya yönəltdi: öz geosiyasi mövqeyinə görə sözügedən region təşəkkül tapmaqda olan Əfşarilər imperiyasının möhkəm frontirinə (sərhədyanı bölgəsinə) çevrilməli idi. Ona görə 1736-cı ilin noyabrından Nadir şah Əfqanıstana yeni yürüşə başladı ki, bu yürüş nəhəng bir məkanda ciddi hərbi-siyasi və geosiyasi dəyişikliklərə gətirib çıxardı.

Artıq 1737-ci ilin aprelinə doğru Nadirin qoşunları Qəndəharın mühasirəsinə başladı. Mühasirə əsnasında Moğol sarayının sərhəddəki vəziyyətə nəzarət etdikləri barədə zəmanətlərinin tutarsızlığı ortaya çıxdı.1738-ci ilin martında Qəndəharın fəthindən sonra məktublarının birinə belə imperatordan cavab almayan Nadir şah Moğolların Kabil əyalətinə doğru hərəkət edərək, tezliklə onu da ələ keçirdi. Kabildən o bir daha Moğol imperatoruna məktublar göndərərək, onu faktiki olaraq əfqan qiyamçı qəbilələrinə yardım etməkdə qınadı. Moğol sarayındakı işlərin vəziyyətinə dair məlumatlar, Nadirin Dehlidəki səfirlərinin bir ildən çox yubadılması, sonuncunun Hindistan sərhədini bağlamaq barədə xahişlərinin Moğollar tərəfindən susqunluqla qarşılanması, habelə əfqan müdaxiləsi zamanı Moğol hökumətinin Səfəvilərə kömək əlini uzatmaması (bu da əslində əfqanlara sərf edirdi), Nadirə şah seçilməsi ilə bağlı təbrik məktubunu göndərməməsi Nadirdə narazılıq doğurmaya bilməzdi.

1738-ci ilin payızında Əfşari qoşunları Moğol İmperiyası sərhədlərinə doğru hərəkətə keçdi. Noyabrın 18-də Pişəvər təslim oldu, noyabrın 26-da isə birbaşa Moğol mülklərinə yol açan Xeybər keçidi uğrunda döyüşdə Nadir heyrətamiz taktiki çeviklik nümayiş etdirərək, əfqanları darmadağın etdi. Yanvar ayında əhəmiyyətli bir

strateji nöqtə olan Lahor Nadirə təslim oldu. Nadir məhz Lahorda olarkən Məhəmməd şahın və nazirlərinin Əfşarilər ordusuna qarşı hərbi əməliyyatlara hazırlaşmaları barədə məlumat aldı.

Dehliyə aparan yolun üzərində yerləşən Karnal yaxınlığında 1739-cu il fevralın 24-də Nadir şah Məhəmməd şahın başçılığı altında Moğol ordusu ilə qarşı-qarşıya gəldi.[108] Karnal döyüşündə qələbə Nadirə Dehlini tutmağa imkan verdi. O, bu şəhərdə 1739-cu ilin may ayının 15-16-dək qaldı.

Nadir ilə Məhəmməd şah arasındakı sazişə görə, "*İmperiyanın Attok və Hind çaylarının qərbində, Tibet və Kəşmir sərhədlərindən Hind çayının dənizə töküldüyü yerə qədər bütün ərazilər Tatta (Tette) əyaləti ilə birlikdə, habelə ona aid limanlar və qalalar* " Məhəmməd şah tərəfindən hakimiyyətin geri dönməsinə minnətdarlıq əlaməti olaraq Nadir şaha verilirdi.[109]İrana geri qayıdarkən Nadir şah Türküstan yürüşünü uğurla həyata keçirərək, Turan və Xorəzmi fəth etdi. Hindistan yürüşü Nadirə saysız-hesabsız sərvət gətirdi: Delhidə ələ keçirilən cavahirat o qədər çox idi ki, Nadir şah qayıtdıqdan sonra üç il ərzində ölkədə vergi toplanılmasına son verdi. Hindistan yürüşü nəticəsində əfqan feodal hakimləri itaətə gətirildi, onların gücünə sarsıdıcı zərbə vuruldu.

Sonrakı illərdə iki ölkənin hökmdarları arasında, eləcə də Nadirin oğlu Nəsrullah Mirzə və Məhəmməd Şah arasında məktublar mübadiləsi və yazışmalar davam etdi. Bundan əlavə, Moğol sarayının əyanları da Nadir şahla yazışaraq, ona hədiyyələr göndərirdilər.[110] Nadir şahın Dehli ilə diplomatik münasibətlərinin başlıca məqsədi Moğol hökumətini zaman-zaman ona böyük miqdarda pul ödəməyə məcbur etmək idi.

---

108 کشمیری، عبدالکریم، بیان واقع. سرگذشت احوال نادر شاه، به تصحیح و تحقیق کی.بی.نسیم، اداره تحقیقات پاکستان، لاهور، ۱۹۷۰، ص ۲۶.

109 آسترابادی, میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار, تهران، ۱۳۷۷، ص. ۳۳۴؛ نسیری محمد رضا، اسناد و مکاتبات تاریخی ایران دوره افشاریه، جلد ۱، گیلان، ١٣٦٤، ص. ۱۰۹.

110 Islam, R. Indo-Persian Relations. A Study of the Political and Diplomatic Relations Between the Mughul Empire and Iran / R. Islam. – Tehran: Iranian Culture Foundation, – 1970. p. 154

Fikrimizcə, Nadir şah öz imperiya məkanını qurmağı xəyal edərkən, orada Hindistana önəmli bir yer ayırırdı. Osmanlı geosiyasi sistemində Krım xanlığı hansı funksiyaları yerinə yetirirdisə, Hindistan da onun imperiya layhəsində təxminən bənzər vəzifələri yerinə yetirməli idi.

**“Nadir şahın Mərkəzi Asiyaya yürüşü”** adlanan üçüncü paraqrafda böyük sərkərdənin göstərilən ekspedisiyası araşdırılır. Qeyd etmək lazımdır ki, Orta Asiya hökmdarları Səfəvi dövlətindəki daxili intiriqalardan istifadə edərək, ilk fürsətdə ona qarşı basqınlar edirdilər. Bu cür hökmdarlardan biri də Xivə hakimi İlbars xan idi. Nadir şahın Türküstan və Mavərənnəhrə yürüş planları hələ Hindistanda olarkən, İlbars xanın Xorasana növbəti basqını haqqında məlumat aldığı zaman ortaya çıxmışdı. Yürüş 1740-cı ilin avqust ayında başladı. Sentyabrın 6-da Nadir artıq Ceyhun çayını keçmişdi. Burada o, Buxara hökmdarı Əbülfəz xanın qoşunlarını darmadağın etdi; ona təslim olmağa məcbur etdi. Mavərənnəhrin şərqdən şimal-şərqə, Buxaradan Səmərqəndə qədər olan bütün torpaqları Nadir şahın əlinə keçdi.[111] Əbülfəz xanın məsləhəti ilə Nadir İlbarsa məktub yazaraq, ultimativ şəkildə ondan itaət tələb edir, əks halda mülklərindən yürüşlə keçəcəyi ilə hədələyirdi.[112]Lakin İlbars nümayişkaranə şəkildə Nadir şahın elçilərinə divan tutdu. 1740-cı ilin oktyabrında Nadir şah Xarəzmə doğru hərəkət etdi. Yürüşün gedişində o, İlbars qoşunlarını bir neçə dəfə darmadağın etdi. İlbars Xəngah qalasında gizlənməli oldu.[113] Qoşunlarının dəstəyinə əmin olmayan İlbars məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı. O və 20 sərkərdəsi Nadir şah tərəfindən edam edildi.[114]

Daha sonra Nadir şah əhalinin müqavimətini qırmaq üçün Xivəyə yönəldi. 7 dekabr 1740-cı ildə Xivədən yola çıxaraq, o, Çarcuya tərəf

---

111 محمد کاظم، نامه عالم آرای نادری ، دفتر ۳، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦٥ ، ص ۷۹۹.

112 استرابادی, میرزا مهدی خان, جهانگشای نادری, به اهتمام سید عبدالله انوار، تهران، ۱۳۷۷، ص . ۳۵۳

113 استرابادی, میرزا مهدی خان, جهانگشای نادری، به اهتمام سید عبدالله انوا،ر ۱۳۷۷، ص ۳۵۵؛ محمد کاظم، نامه عالم آرای نادری ، دفتر ۳، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦٥، ص ۸۱۱ ؛ کشمیری، عبدالکریم، بیان واقع. سرگذشت احوال نادر شاه، به تصحیح و تحقیق کی .بی. نسیم، اداره تحقیقات پاکستان، لاهور، ۱۹۷۰، ص ۸۷.

114 آسترابادی، میرزا مهدی خان، جهانگشای نادری، به اهتمام سید عبدالله انوار، تهران، ۱۳۷۷، ص. ۳۵۷.

yola düşdü, daha sonra Mərv və Kelatdan keçərək 17 yanvar 1741-ci ildə Məşhədə gəlib çıxdı.[115]

Beləliklə, Nadir şah, Mavərənnəhrə və Xorəzmə yürüş edərək, bu bölgələri fəth etmiş, tabe olmayan xanları itaətə gətirmiş və əsrlər boyu öz basqınları ilə Xorasan əhalisini incidən özbək basqınçılarının hücum təhlükəsini aradan qaldırmışdı. Hindistanda Məhəmməd şahla olduğu kimi Nadir özbək hakimi Əbülfəz xanı da hakimiyyətdə saxlayaraq, onu şah mənsəbinə yüksəltmişdi. Nadirin ordusu qorxmaz özbək əsgərləri hesabına sayca xeyli artırılmışdı. Mərkəzi Asiyada, yerli sadiq hakimlər sistemi vasitəsilə zəhmli Əfşar hökmdarı öz iqtidar münasibətləri iyerarxiyasını qurmuşdu.

**"Nadir şahın Dağıstana yürüşü"** adlanan dördüncü paraqrafda Nadir şahın Dağıstana ekspedisiyasının peripetiyaları təhlil edilir. Dissertasiyada ümumi olaraq Nadir şahın 1734 və 1735-ci illərdə Surxay xana və digər Dağıstan hakimlərinə qarşı, bəzən tarixşünaslıqda Nadirin Dağıstana birinci və ikinci yürüşləri kimi qələmə verilən əməliyyatları təsvir olunur.[116]

Bəlli olduğu kimi, 1737-ci ildən bəri Nadirin başı Əfqanıstanda, Hindistanda və Mərkəzi Asiyadakı hərbi əməliyyatlara qarışmışdı. Onun olmaması Dağıstanda və Şimali Azərbaycanın ona bitişik bölgələrində üsyanlara bir növ siqnal olaraq qəbul edildi. Azərbaycan hakimi kimi faktiki olaraq bütün Cənubi Qafqazın idarəçiliyinin tapşırıldığı Nadir şahın qardaşı İbrahim xan üsyançı Dağıstan xalqlarına qarşı yürüşə qərar verdi. 1738-ci ilin payızında İbrahim xanın cəza ekspedisiyası xarakteri daşıyan Car yürüşü, bəzi uğurlara baxmayaraq fəlakətlə nəticələndi.

Qeyd edildi ki, həmin dövrdə Əfşarilər dövlətinin əsas hərbi qüvvələri Orta Asiya xanlıqlarına və Hindistana qarşı yürüşdə iştirak edirdilər. İbrahim xanın sərəncamında olan qoşunlar isə öz keyfiyyətinə görə əsas hərbi qüvvələrdən əhəmiyyətli dərəcədə geri qalırdı. Digər tərəfdən, İbrahim xan heç də azsaylı Car könüllü

---

[115] آسترابادی میرزا مهدی خان، جهانگشای نادری، به اهتمام سید عبدالله انوار، تهران، ۱۳۷۷، ص. ۳۵۰.

[116] محمد کاظم، عالم آرای نادری نامه، دفتر ۱، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹٦٥ ، ص ۲۸۳.

dəstələri ilə deyil, Dağıstanın hər yerindən toplanmış güclü silahlı qruplaşma ilə qarşılaşmışdı.[117]

İbrahim xanın məğlubiyyəti Cənubi Qafqazda yaradılmış bütün hakimiyyət konstruksiyasının faktiki dağılmasına gətirib çıxara bilərdi. Üsyançılar öz yaşam areallarından kənardakı əraziləri də ələ keçirərək, sünni əhalini mərkəzi hakimiyyətə qarşı qaldırırdılar. Məhz buna görə də dağlıların sakitləşdirilməsi Nadir üçün ciddi zərurət idi.

Nadir şah hələ Əfqanıstanda olarkən Qəni xan Abdalinin komandanlığı altında Şirvana göndərilmək üçün süvariləri təchiz etmişdi. Və Qəni xanın süvariləri carlıların müqavimətini tez bir zamanda qırdı. Nadir özü Dağıstan yürüşünə 1741-ci il martın14-də Məşhəddən çıxdı.[118] O, 1741-ci il avqustun əvvəllərində iki əməliyyat istiqamətində fəaliyyət göstəRməyə başladı: Heydər bəyin başçılıq etdiyi qoşun qruplaşması Qaytaqdan keçərək, Mehtuli xanlığının ərazisinə doğru hərəkət etdi. Nadirin özü isə əsas qüvvələrlə Surxay xanın mülklərinə doğru yönəldi. Qaytaqlıların müqavimətini ciddi itkilər bahasına, yalnız şahın göndərdiyi Lütfəli xanın 24 minlik dəstəsinin köməyi ilə qırmaq mümkün oldu. Sonra bu dəstələr Xasbulat Tarkovskinin mülklərindən keçərək, Mehtuli xanlığı hüdudlarına daxil oldu və kiçik atışmadan sonra Aymaki dərəsində dayandı.[119]

Yayın sonlarına doğru Avarıstan tutulmadan Dağıstanın möhkəm şəkildə əldə saxlanılmasından söhbət gedə bilməyəcəyi aydın oldu. Aymaki dərəsi bölgəsində fəaliyyət göstərən əfşari qoşunları qarşıya qoyulan tapşırığı yerinə yetirə bilmədi. Lütfəli xanın komandanlığı altında olan 24.000 nəfərlik qoşunun böyük bir qismi faktiki məhv edildi. Eyni aqibətlə Heydər bəy və Cəlil bəyin dəstələri də üzləşmişdi. Nadirin özünün komandanlığındakı başqa qoşun

---

117 محمد کاظم، عالم آرای نادری نامه، دفتر ۱، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹۶۵ ، ص. ۱۷۳ .

118 محمد کاظم، عالم آرای نادری نامه، دفتر ۳، مقدمه بقلم میکلوخو ماکلای، مسکو ، ۱۹۶۵ ، ص ۸۳۳

119 Тамай А.И. К вопросу о провале Дагестанской кампании шаха Надира (1741-1743 гг.) // Ученые записки ИИЯЛ Дагестанского филиала АН СССР Т.5, Махачкала, 1958. - С. 115

qruplaşması Hunzaxa doğru yoluna davam etmək üçün Andalala yönəlmişdi. Avarıstandakı həlledici döyüşlər 5 gün davam etdi. Dağıstanlıların fədakarlığı, çətin keçilən dağ relyefi, sərt hava şəraiti – bu amillərin hər biri Nadir şah qoşunlarının məğlubiyyətində öz rolunu oynadı. Bütün bədbəxtliklərə yağışlar üzündən Əfşari ordusunun fitilli tüfənglərinin işə yaramaması da əlavə olundu. Sentyabrın 28-də öz müvəffəqiyyətsizliyini başa düşən Nadir Avar dağlarından çəkilməyə başladı. Lakin geri çəkilmə görünməmiş itkilərlə müşayiət olunurdu. Nadirin qoşunları əvvəllər heç vaxt bu miqyasda itkilərlə üzləşməmişdi: Nadirin 52 minlik ordusundan Avar ekspedisiyasının sonlarına doğru təxminən 27 min sağ qalmışdı. [120]

1742-ci ildə Nadir Tabasarana və Qaytağa bir sıra yürüşlər etdi, lakin hədəflərinə tam çata bilmədi. Elə həmin ilin yazında və yayında o, bir növ öz asılı hakimlər sistemini qurmağa çalışdı. Lakin Nadirin silahlarını yerə qoyan tayfaların əsilzadələrini səxavətlə mükafatlandırmasına baxmayaraq, onun Dağıstan hakimlərini və ağsaqqallarını öz tərəfinə çəkmək cəhdi gözlənilən nəticəni vermədi. 1742-ci ilin sonlarına doğru Nadir Qumuxda, Qaytaqda, Tabasaranda nəzarətində olan əraziləri tədricən genişləndirirdi.[121] Lakin fəth edilmiş torpaqların sakinləri mübarizəni davam etdirmək üçün Avarıstana keçirdilər. Rusiya hökumətinin hərəkətləri sayəsində kəskin ərzaq çatışmazlığı yaşayan Nadir 1743-cü ilin fevralında Endirey, Kostek və Aksayqumuq kəndlərinə qarşı yürüşə çıxdı. Lakin şimala doğru hərəkət edən Nadir tezliklə osmanlıların Qafqaza qoşun göndərdikləri barədə məlumat əldə etdi. Köhnə düşmən olan Osmanlıların onun arxasında yenidən silahlandığı bir məqamda ruslara hücum etməyin qeyri-praktikliyini başa düşən Nadir 1743-cü il fevralın 10-da cənuba doğru üz tutaraq, Muğan düzünə tərəf hərəkət etdi.

---

[120] История Дагестана: [в 4-х томах] / ред. Г.Д. Даниялов. – Москва: Наука, – том 1. – 1967. с. 367

[121]Арунова, М.Р. Государство Надир-шаха Афшара. Очерки общ. Отношений в Иране 30-40 годов XVIII века / М.Р.Арунова, К.З.Ашрафян – Москва: Изд-во восточной лит-ры, – 1958, с. 201

Fikrimizcə, Nadirin Dağıstan yürüşü onun sırf hərbi-strateji və geosiyasi xarakterli vəzifələrdən qaynaqlanmışdı. Birincisi, həmin vaxta qədər Dağıstan və ona bitişik yerlərin əhalisi əsasən sünni olan Azərbaycan əraziləri Səfəvilər, daha sonra isə Əfşarilər hökumətinin mərkəziyyətçi cəhdlərinə qarşı dayanıqlı əks-fəaliyyət mərkəzlərinə çevrilmişdi. İkincisi, dağlıq hissəyə yiyələnmədən bütövlükdə Dağıstanı nəzarətdə saxlamaq mümkün deyildi. Dağıstan isə Nadir üçün nəzərdə tutduğu dövlətinin şimal təbii sərhədləri qismində, öz dövləti və güclənməkdə olan Rusiya imperiyası arasında bir növ bufer kimi maraq doğururdu. Üçüncüsü, hətta əgər Nadir düzənliklə kifayətlənib, dağlara can atmasaydı belə, böyük ehtimalla, yenə də Dağıstanın dağlıq hissəsi ilə işi olacaqdı, belə ki, dağlar təbii səbəblərə görə diyarın bütün narazı ünsürlərinin sığınacağı idi.

Beləliklə, Dağıstan yürüşünün rasional əsasları heç bir şübhə doğurmur. Lakin, kampaniyanın özünün nöqteyi-nəzərindən hərbi vəzifələrin yerinə yetirmə üsulları və metodları həddən ziyadə ağlasığmaz idi.

Dissertasiyanın **"Nəticə"** hissəsində mənbəşünaslıq və tarixşünaslıq araşdırmaları əsasında nəzərdən keçirilən dövrün farsdilli sənədli və təhkiyə mənbələrinin dəqiq analizi və təsnifatı aparılmaqla Səfəvilər dövlətinin yadelli işğalçılardan azad edilməsi sahəsində Nadir şahın hərbi-siyasi fəaliyyətinin nəticələri, onun tərəfindən qurulan imperiyada hakimiyyətinin legitimləşdirilməsi istiqamətində axtarışları, dini və hərbi sahədə, eləcə də dövlətçilik və hərbi iqtisadiyyat sferasındakı yenilikləri ümumləşdirilmişdir.

1722-ci ildə qilzai əfqanları paytaxt İsfahanla birlikdə ölkənin mərkəzi hissəsini ələ keçirdikdən sonra I Pyotr Səfəvilər dövlətinə yürüşə başladı və Xəzəryanı bölgələri zəbt etdi. Buna cavab olaraq türklər ölkənin qərb və şimal-qərb hissələrini ələ keçirdilər. Lakin yadellilərə qarşı mübarizəyə rəhbərlik edən Nadirqulu xan Əfşarın II Şah Təhmasibə qoşulması hadisələrin gedişatını dəyişdi. 1729-cu ilin sonlarında Nadirin ordusu üç döyüşdə əfqanları məğlub etdi və İsfahanı əfqanlardan geri aldı və həmin yerlərdə Təhmasibin hakimiyyətini bərpa etdi. Nadir Osmanlı türklərini ölkədən çıxarmağa və rus qoşunlarını Xəzəryanı bölgələrii tərk etməyə

məcbur etməyə müvəffəq oldu. Bu zaman Nadir özü ölkəyə rəhbərlik etməyə hazır idi və 1736-cı il martın 8-də Muğan çölündə təşkil etdiyi qurultayda şah seçildi. Tacqoyma mərasimində yeni bir dövlət dini olan Cəfəri məzhəbinin qəbul edildiyini elan edən Nadir bununla dörd sünni məktəbi ilə birlikdə şiəliyin ortodoks islama beşinci məzhəb kimi inteqrasiyasını həyata keçirdi. O, imami şiəliyini hüquqi məktəbin banisi sayılan altıncı imam Cəfər əs-Sadiqdən adı ilə Cəfəri məzhəbi adlandırmağı təklif etdi və bununla da sadəcə bir sülalənin digəri ilə əvəzlənmədiyini, dövlətinin ideoloji kursunun dəyişdiyini bəyan etdi.

Nadir şah bütün hakimiyyəti dövründə həm diplomatik vasitələrdən, həm də hərbi təzyiqlərdən istifadə edərək türkləri onun tələblərini qəbul etməyə və Cəfəri məzhəbini tanımağa məcbur etməyə çalışsa da, onlar israrlı şəkildə təkzib etdilər. Türklərlə çoxdan gözlənilən sülh yalnız konfessional barışıq məsələsinin həllində uğur qazana bilməyən Nadir şah yeni məzhəbin tanınması üçün qoyduğun şərtləri aradan qaldırdıqda bağlandı.

Nadir şahın Moğol Hindistanına və Mərkəzi Asiyaya yürüş əsasən onun strateji hesablamaları ilə bağlı idi. Birincisi, onlar ölkənin nəzərdə tutulan özünəməxsus modernləşdirilməsi üçün tələb olunan vəsaiti əldə etmək istəyindən irəli gəlirdi. İkincisi, Nadir, fikrimizcə, öz imperiyasını elə qurmaq istəyirdi ki, orada Hindistan Krım xanlığının Osmanlı geosiyasi sistemində yerinə yetirdiyi funksiyaları yerinə yetirsin. Dissertasiyada həmçinin, ilk növbədə, Nadir şahın öz imperiyasını qurmaq planlarında mühüm geosiyasi məkanda yerləşməsinə görə strateji əhəmiyyət kəsb edən Dağıstana yürüşü icmal şəkilində təhlilə cəlb. İkincisi, bu yürüşün məqsədi Rusiya ilə gələcək qarşıdurmada strateji üstünlüklər əldə etmək niyyəti daşıyıb. Üçüncüsü, ucqarlara (və ya onun əsas nöqtələrinə) sahib olmaq məntiqi dağlıq bölgələri fəth etmək zərurətini diktə edirdi, çünki dağlar olmadan düzənliyə nəzarət etmək mümkün deyildi. Eyni zamanda, Nadirin hərbi planları zorakı üsul və metodlarla həyata keçirməsi son dərəcə ağlasığmaz və hətta faciəvi oldu.

Hərbi islahatların müxtəlif aspektlərini sosial proseslər kontekstində araşdıraraq belə qənaətə gəldik ki, yeni ordunun yaradılması onu müntəzəm surətdə texnika və silahlarla təmin etməyə qadir olan müvafiq sənaye bazasının qurulmasını nəzərdə tutur. Bu da öz növbəsində sonradan sənaye inqilabına gətirib çıxara biləcək sənayeləşmə ərəfəsi üçün ilkin şərait yarada bilər.

XVIII əsrin 30-cu illərində Nadir şahın inzibati və iqtisadi sahədə həyata keçirdiyi tədbirlərin tədqiqi bizə onların mütərəqqi xarakter daşıdığı qənaətinə gəlməyə imkan verdi. Bizim tərəfimizdən "dövlətin modernləşmə ərəfəsi" adlandırılan bu dövrü fenomen təzahürü kimi də xarakterizə edə bilərik. Nadir silah və ağır artilleriya istehsalını qurdu, ölkənin maliyyəsini xeyli dərəcədə qaydaya saldı, dövlət torpaq fondunun həcmini artırdı, dövlət aparatının mərkəzləşdirilməsi siyasətini uğurla həyata keçirdi, "partikulyarizmə" qarşı mübarizəni gücləndirdi. Fikrimizcə, hərbi sahədə toplanmış təcrübə, lazım gəldikdə, mülki sahədə də istifadə oluuna bilərdi. Nadirin hərbi inqilabı adlanan islahatlar, Avropada olduğu kimi, iqtisadiyyatın və istehsal münasibətlərinin əhəmiyyətli dərəcədə yenidən qurulmasına səbəb olmadı.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Dünya nadirşünaslığında "Tarixi-cahangüşai-Nadiri"nin yeri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, – 2016. № 1, – s. 195-201
2. Azərbaycan hökmdarlarının katibi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, – 2012. 41-43-cü cild, – s. 84-97
3. "Tarixi-cahanqüşayi-Nadiri"nin dünya kitabxanalarında nüsxələri // "Kitabxana-informasiya elmi-tədris və təcrübədə yeni çağırışlar" Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 5 may, – 2016, – s. 230-235
4. 18 Yüzilda Afşarlar ve Osmanlı Devleti Arasındaki Diplomatik İlişkiler // I Milletlerarası Türkiye-Azerbaycan

münasebetleri Sempozyumu, – Kastomonu: Kastamonu Universitesi, – 12-14 mayıs, – 2016, – s. 92-97
5. Nadir Şah'ın Dağıstan'a III. Seferi // TYB Akademi "Kafkasya", – mayıs 2021, sayı 32, – s. 44-60
6. Contemporaries on the Economic Situation in the Empire of Nadir Shah // – Pune (India): Journal NX-Multidisciplinary Peer Reviewed Journal, – 2020, – p. 326-330
7. Nadir Shah's Policy with Regard to Religious Minorities // "Manuscripts Don't Burn", Institute of Manuscripts of the Academy of Sciences, – 2019. №1 (8), – p.114-120
8. Nadir Şah Dönemi Devlet Yönetim Sistemi ve Askeri Ekonomi / Nadir Şahın Mirası: 18. Yüzyıldan Bugüne İran ve Türkiyede Avşarlar. – İstanbul: Selenge Yayınları, – 2023. – s. 543-558
9. «Алам арай-и Надири» как источник по военной и социально-экономической истории Надир шаха // – Bakı: Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri, – 2010. № 4, – s. 94-102
10. Армия Надир шаха Афшара глазами современников // Сходознавство. Актуальность та перспективи. Матеріали III Міжнародноі науково-методиноі конференціі, - Харьків: - 6 мая, - 2022 – с. 201-203;
11. Археографические документы Надир шаха Афшара из коллекции НАН Азербайджана // – Bakı: "Tarix və onun problemləri", – 2011. № 2, – s. 286-291
12. Бакинские списки «Инша» Мирза Мехди хана Астарабади // Orta əsr əlyazmaları və Azərbaucan mədəniyyəti tarixi problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-ci ildönümünə həsr olunmuş XIII Respublika elmi konfransının materialları, – Bakı: – 24 may, – 2013, – s. 353-355
13. Вопросы объединения в исламе в Афшаридском государстве // "Azərbaycanşünaslığın aktual problemləri" VIII Beynəlxalq elmi konfransı, – Bakı: – 3-5 may, – 2017, – s. 194-196

14. Два автора – два взгляда на жизнь Надир шаха // Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları. Ak. V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş beynalxalq elmi konfransın materialları, – Bakı: – 27-28 iyun, – 2013, – s. 685-689
15. Два малоизвестных источника по истории Надир шаха Афшара // Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü prof. R.Azadəyə həsr olunmuş II Beynalxalq elmi konfransın materialları, – Bakı: – 15-16 dekabr, – 2014, s. 323-327
16. Дипломатическая переписка Надир шаха Афшара как источник по истории 2-ой четверти XVIII в. // Müasir şərqşünaslığın aktual problemləri". Beynalxalq elmi konfransın materialları, – Bakı: – 1-2 iyun, – 2011, – s. 26-28
17. Документ Надир шаха Афшара и суннитско-шиитский диалог в XVIII в. // – Москва: «Вопросы истории», – 2019. №3, – с. 154-164
18. Идея религиозного универсализма Надир шаха Афшара // Mədəniyyət və İncəsənət Universiteti Beynəlxalq konfransı, – Bakı: – 9 dekabr, – 2016, – s. 221-223
19. Изменение в положении религиозных меньшинств в империи Надир шаха // Azərbaycanşünaslığın aktual problemləri. VI Beynəlxalq elmi konfransın materialları, II hissə, – Bakı: – Slavyan Univesiteti, – 3-5 iyun, – 2016, – s. 194-196
20. Источники о вооружении в армии Надир шаха Афшара и его искусстве ведения войны // XXX Конгресс по источниковедению и историографии стран Азии и Африки, – СПб: – 19-21 июня, – 2019, – с. 208-209
21. Мазхаб-и Джафари и религиозная концепция Надир шаха // – Bakı: AMEA-nın "Xəbərləri", Tarix, fəlsəfə, hüquq, – 2013. № 1, – s. 33-44
22. Мирза Мехди хан Астарабади и его творческое наследие // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Xəbərləri», – 2007. № 6, – s. 139-150

23. Надир шах: в поисках нового идеократического ресурса для конструируемой империи // – Киев: Научный вестник «Гілея», – 2020. №1, – с. 34-40
24. Налоговая политика Надир шаха Афшара // – Bakı: BDU-nun "Xəbərləri", Humanitar elmlər seriyası, – 2013. № 1, – s. 80-91
25. «Намеха-и Надир шах» как исторический источник |// Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri: IX Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, – 23-24.09.2004, – s. 200-203
26. Некоторые вопросы по истории Азербайджана // "Azərbaycanşünaslığın aktual problemləri". VI Beynəlxalq elmi konfransın materialları, II hissə – Bakı: Slavyan Univesiteti, – 7-7 iyun, – 2015, – s. 180-182
27. Некоторые сведения о двух источниках по истории Надир шаха Афшара // – Bakı: "Tarix və onun problemləri", – 2014. №3, – s. 304-309
28. Об изменениях экономической обстановки в Иране во второй четверти XVIII в. (по материалам «Алам арай-и Надири» Мухаммеда Казима) // – Телави: Телавский Государственный Университет, Сборник научных трудов "Transaction", – 2016. №1, – с. 99-103
29. Об одном фермане Надир шаха Афшара из коллекции ИР НАН Азербайджана (дипломатическое исследование) // "Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyət və mədəniyyətin yeri". Beynalxalq konfransın materialları, – Bakı: – 2010, – s. 76-78
30. Основные персоязычные источники по истории государства Надир шаха // "Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri" XII Respublika elmi konfransının materialları, – Bakı: –3 iyun, – 2011, – s. 129-138
31. Переселенческая политика Надир шаха (по материалам «Алам арай-и Надири» Мухаммеда Казима) //

“Azərbaycanşünaslığın aktual problemləri” IX beynəlxalq elmi konfransı, – Bakı: Slavyan Universiteti, – 03-04 may, – 2018, – s. 346-347

32. Персоязычные источники о походе Надир шаха Афшара в Мавераннахр и Хорезм, // – Toşkent: “O’zbekiston Tarixi”, O’zbekiston Respublikasi Fanlar Akademiyasi, – 2011. № 4, – с. 74-82
33. Письма личного врача Надир шаха Базена // Azərbaycanda tibb elminin tarixi problemləri. I Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, – 1-2. 02. 2005, – s. 45-48
34. Подати и повинности в пользу армии в государстве Надир шаха // – Алматы: “Хабарши”, Abay adına Qazaxıstan Milli pedaqoji Universiteti, – 2012. № 3(34), – с. 88-91
35. Политика Надир шаха в отношении религиозных меньшинств // – Bakı: BDU-nun “Xəbərləri”, Humanitar elmlər seriyası, – 2011. № 4, – s. 152-161
36. Политика объединения религий Надир шаха Афшара // 2022-ci il Şuşa ilinə həsr olunmuş V Beynalxalq Həmzə Nigari simpoziumun materialları, - Ağdam, Guzanlı, - 17-19 may 2022-ci il, - s. 95-100
37. Религиозная политика Надир шаха на Кавказе // “Qafqaz tarixinin aktual məsələləri” Beynalxalq elmi konfransının materialları, – Gəncə: Gəncə Dövlət Universiteti, – 15-16 oktyabr, – 2015, – с. 90-93
38. «Рузname-и Мирза Мухаммад калантар-и Фарс» как источник по военно-политической и экономической жизни государства Надир шаха // – Bakı: APDU-nun “Xəbərləri”, Humanitar elmlər bölməsi, – 2013. № 1, – s. 177-182
39. Рукописные списки сочинений Мирза Мехди хана Астарабади из коллекции ИР им. Физули НАНА // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi

problemləri. AMEA-nın Əlyazmalar İnstitutun 65 illik yubileyinə həsr olunmuş XIV Respublika elmi konfransının materialları, – Bakı – 22-24 may, – 2015, – s. 151-154
40. Сведения об армии Надир шаха Афшара в «Алам арай-и Надири» Мухаммеда Казима // – Bakı: AMEA Akademik Z.Bünyadov adına Şərqşünaslıq İstitutunun "Elmi araşdirmaları" toplusu, – 2014. X buraxılış, – s. 246-251.
41. Созыв Надир шахом совещания религиозных деятелей в 1743 г. // – Bakı: BDU-nun "Xəbərləri", Humanitar elmlər seriyası, – 2012. № 1, – s. 161-170
42. Сочинение «Инша'» Мирза Мехди хана Астарабади и его бакинские списки // – Bakı: «Tarix və onun problemləri», – 2008. № 3, – s. 40-48
43. Средневековая персоязычная историография о государстве Надир шахе // – Bakı: "Tarix və onun problemləri", – 2012. № 1, – s. 231-236
44. Тазкире Валеха Дагестани «Рийаз аш-шу'ара» о походе Надир шаха в Индию // Локальное наследие и глобальная перспектива «Традиционализм» и «революционизм» на Востоке. XXVII Международная научная конференция по источниковедению и историографии стран Азии и Африки. – Санкт-Петербург: Восточный ф-т СПбУ, – 2013, 4 (302), – с. 51-52
45. «Тарих-и джахангуша-и Надири» Мирза Мехди хана как исторический источник // Bakı: «Tarix və onun problemləri», – 2008. № 4, – s. 339-346
46. «Шахнаме-е Надири» как источник по военной истории Надир шаха Афшара // «Модернизация и традиции». XXVI Международная конференция по источниковедению и историографии стран Азии и Африки. – Санкт-Петербург: – 20-22 апреля, – 2011, – с. 60-61
47. Этнические изменения в Азербайджане в годы правления Надир шаха // XXVIII Международная научная конференция по источниковедению и историографии

стран Азии и Африки «Азия и Африка в меняющемся мире». – СПб: Восточный ф-т СПбУ, – 22-24 апреля, – 2015, – с. 100-101

48. نسخ خطی "دره نادره" تألیف میرزا مهدی خان آسترآبادی در انستیتوی نسخ خطی فرهنگستان ملی علوم آذربایجان، وارلیق، شماره ۱٦۰ تهران، ۲۰۱۱، ص. ۹۴-۵۳

49. نسخه های خطی "تاریخ جهانگشای نادری" اثر میرزا مهدی خان استرآبادی درانستیتوی نسخ خطی فرهنگستان ملی علوم جمهوری آذربایجان، وارلیق، شماره ۱۵۳، تهران، ۲۰۰۹، ص. ۲٦-۳۲

Dissertasiyanın müdafiəsi 13 iyun 2024-cü il tarixində saat $10^{00}$ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1141, Bakı şəhəri, Yasamal r/nu, H.Cavid prospekti, 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _____________
Kağızın formatı: _____________
Həcm: ___________
Tiraj: 30